## "Qarşıdakı 2 ildə iqtisadiyyatımızı genişləndirəcəyik"

Britaniyanın yeni Baş naziri gələcək planlarını açıqlayıb



**"Keçmiş lider, dostum Boris Consona təşəkkür edirəm. Boris, siz Kiyevə dəstəklə bağlı çox böyük işlər görmüsünüz".**

"Report" xəbər verir ki, bunu Böyük Britaniyanın yeni Baş naziri Liz Trass deyib.

"Mənə olan inam üçün hər kəsə təşəkkür edirəm. Biz qarşıdakı 2 il ərzində iqtisadiyyatımızı genişləndirmək, enerji təhlükəsizliyinin təmin olunması üçün çalışacağıq. Biz əlimizdən gələni edəcəyik. Böyük uğur qazanacağımıza inanırım. 2024-cü il seçkilərində bu uğuru yenidən ortaya qoyacağımıza əminəm", - hökumət başçısı vurğulayıb.

## Zakir Qaralovun ölkədən çıxışına qadağa qoyulmayıb



**Baş Prokurorluq Zakir Qaralovun ölkə xaricinə çıxışına qadağa qoyulması xəbərinə münasibət bildirib.**

Baş Prokurorluğun Mətbuat xidmətindən Trend-in sorğusuna cavab olaraq bildirilib ki, sabiq Baş Prokuror Zakir Qaralovun ölkə xaricinə çıxışına qadağa qoyulması ilə bağlı məlumat tərəfimizdən təsdiq edilmir.

❒ № 159 (5681), 2022-ci il

Qiymətı 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 6 sentyabr 2022-ci il (çərşənbə axşamı)




## Xəbəriniz olsun, evə gecikməyin!

Bu gündən Bakı metrosunun bəzi stansiyaları daha tez bağlanacaq

**Bu gündən Sabahdan oktyabrın 1-nə qədər "Bakı Metropoliteni" QSC-nin Bənövşəyi xəttinin stansiyalarına giriş saat 23:30-da bağlanacaq.**

Bu barədə "Şərq"ə qurumun Mətbuat Xidmətinin rəhbəri Bəxtiyar Məmmədov məlumat verib.

Onun sözlərinə görə, buna səbəb "Xocəsən-Avtovağzal" sahəsində qatarların hərəkətinin təşkil edilməsi ilə bağlı işə başlanılmasıdır. Odur ki, "Avtovağzal", "Memar Əcəmi" və "8 Noyabr" stansiyalarında qatarların hərəkəti vaxtından əvvəl məhdudlaşdırılacaq. Qeyd edək ki, Bakı Metropolitenində normal rejimdə stansiyalara giriş 00:00-da dayandırılır



## Türkiyənin Baş Qərargah rəisi Azərbaycana gəlib

**Sentyabr 5-də Türkiyə Respublikasının Baş Qərargah rəisi ordu generalı Yaşar Güler ölkəmizə səfər edib.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib.

Məlumata görə, işgüzar səfər çərçivəsində ordu generalı Y.Gülerin Bakı Ekspo Mərkəzində keçirilən "ADEX 2022" dördüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisini ziyarət etməsi və bir sıra görüşlərin keçirilməsi planlaşdırılır.

## Türkiyə F-16-ları Azərbaycanda

Birgə taktiki-uçuş təlimlərinin açılış mərasimi keçirilib



**Sentyabrın 5-də "TurAz Qartalı - 2022" birgə taktiki-uçuş təlimlərinin açılış mərasimi keçirilib.**

**Tədbirdə Azərbaycanın və Türkiyənin hərbi qulluqçuları, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və başqaları iştirak ediblər.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən bildirilib.

Əvvəlcə hər iki dövlətin himnləri səsləndirilib, ümummilli lider Heydər Əliyevin və ölkələrimizin müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Hərbi Hava Qüvvələrinin zabiti general-mayor Zaur Rüstəmov qonaqları salamlayaraq vurğulayıb ki, bu cür təlimlərin keçirilməsi birgə fəaliyyətlərin planlaşdırılması, qarşılıqlı əlaqə və döyüş uzlaşmasının öyrənilməsi, eləcə də axtarış-xilasetmə tədbirlərinin icrası baxımından mühüm əhəmiyyət kəsb edir.

(səh.3)

# İrəvan məcburdur

İlin sonuna kimi anlaşma mətni hazırlanacaq




Mümkündür ki, yanvar ayında sülh müqaviləsi Azərbaycan tərəfindən ratifikasiya olunsun

**Ermənistanın Baş naziri Nikol Paşinyan hakim partiyasının deputatları ilə qapalı görüş keçirib. Baş nazir Azərbaycanla sülh müqaviləsinin ilin sonuna qədər imzalanacağını bildirib.**

Paşinyanın deputatlarla görüşündə qarşıdakı dövrdə keçiriləcək yerli idarəetmə seçkiləri, partiyanın qurultayı və s. məsələlər müzakirə olunub.

İclasın sonunda Nikol Paşinyan Azərbaycan Prezidenti ilə Brüsseldə keçirilən görüşün təfərrütları barədə ətraflı məlumat verib. Baş nazir bildirib ki, bu ilin axırınadək rəsmi Bakı ilə sülh müqaviləsi imzalanmalıdır.

(səh.3)

## Naşı sürücülər qazanc peşində, ailələr məhv olur

"Qaçaq" avtobuslarla səfərə çıxmağın hər saatı, hər dəqiqəsi ölümə bərabərdir



**Lerik rayonunda yerli turistləri daşıyan avtobus qəzaya uğrayıb.**

Avtobusun qəzaya uğraması nəticəsində 8 nəfər həyatını itirib, 10 nəfər yaralanıb. Xəsarət alanlar Lənkəran rayonunun Boladi kənd sakinləridir. Yaralılar Lənkəran Rayon Mərkəzi Xəstəxanaya çatdırılıb. Vəfat edənlərin meyitləri Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Pataloji Anatomiya Birliyinin Lerik rayon şöbəsinə təhvil verilib.

(səh.3)



## Görüş yerini dəyişdilər

Putin və Paşinyan Vladivostokda üçtərəfli bəyanatların icrasını müzakirə edəcəklər

**Rusiya Prezidenti Vladimir Putin Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşəcək.**

"Report"un Rusiya bürosunun məlumatına görə, bu barədə Rusiya Prezidentinin beynəlxalq məsələlər üzrə köməkçisi Yuri Uşakov bildirib.

Onun sözlərinə görə, Vladivostok İqtisadi Forumu çərçivəsində keçiriləcək görüşdə onlar üçtərəfli bəyanatların icrasını müzakirə edəcəklər: "Rusiya üç ölkə lideri arasında imzalanmış üçtərəfli bəyanatlar əsasında Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşmasına hərtərəfli yardımını davam etdirir".

## Xalq artisti xəstəxanadan evə buraxılıb

Ənvər Həsənovun müalicəsi həkim müşahidəsi altında evdə davam edəcək



**Xalq artisti Ənvər Həsənov müalicə aldığı TƏBİB-in tabeliyində olan Xəzər Tibb Mərkəzindən ambulator müalicə üçün evə buraxılıb.**

TƏBİB-dən verilən məlumata görə, Xalq artistinin öz istəyi və həkimlərin tibbi rəyinə uyğun olaraq müalicəsi həkim müşahidəsi altında evdə davam edəcək.

*Qeyd edək ki, Xalq artisti avqustun 28-də bronxopnevmaniya diaqnozu ilə xəstəxanaya yerləşdirilib. O uzun illərdir şəkər xəstəliyindən də əziyyət çəkir.*

## Koronavirusdan ölən olmayıb

Yoluxanların sayı kəskin azaldı

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 72 yeni yoluxma faktı qeydə alınıb, 139 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 infeksiyasından ölüm halı baş verməyib.

Azərbaycanda indiyədək ümumilikdə 815 595 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 802 395 nəfər müalicə olunaraq sağalıb, 9 825 nəfər vəfat edib, aktiv xəstə sayı 3 375 nəfərdir.

*Ölkədə son sutka ərzində 2 001, hazırkı dövrədək isə 7 172 037 test aparılıb.*



## Ermənistan artıq müqavimət göstərmək gücündə deyil

Əgər təxribatlar davam edərsə, Azərbaycan Ordusunun irəliləmə miqyası genişlənəcək

(səh.2)

## Təhlükə hər gün yeni şəkil alır

Pandemiya valideynləri smartfon bataqlığına salıb



(səh.5)



# Ceyhun Bayramov Fransa səfiri ilə görüşüb

**Dünən xarici işlər naziri Ceyhun Bayramov Fransa Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Zakari Qrossu ölkəmizdəki diplomatik fəaliyyətinin başa çatması münasibətilə qəbul edib.**

XİN-dən APA-ya verilən xəbərə görə, Fransa səfirinin Azərbaycan üçün çox tarixi bir dövrdə fəaliyyət göstərdiyinə istinad edən nazir Ceyhun Bayramov, səfir Zakari Qrossun ikitərəfli əlaqələrin inkişafı istiqamətində səylərini, onun peşəkar yanaşma nümayiş etdirdiyini qeyd edib.

İki ölkə arasında siyasi dialoqun davamlılığı, xüsusilə də dövlət liderləri arasında mövcud olan sıx təmasların münasibətlərin inkişafına, o cümlədən hər hansı məsələlərin müsbət şəkildə həllinə ciddi töhfə verdiyi vurğulanıb. Nazir, xüsusilə humanitar, təhsil sahələrində əməkdaşlığın inkişafının davam etdiyini vurğulayıb.

Səfir Zakari Qross Azərbaycanda fəaliyyətini məmnunluqla qeyd edib. Səfir, iki ölkə arasında iqtisadi, nəqliyyat-bağlantı, humanitar və digər sahələrdə əməkdaşlığın əhəmiyyətini səsləndirib və ikitərəfli gündəliyin bir çox sahələr üzrə irəli aparılması imkanlarının mövcud olduğunu qeyd edib.

Nazir, minaların təmizlənməsi sahəsində Fransa tərəfinin dəstəyini məmnunluqla qeyd edib. Azad edilən ərazilərin yenidən qurulması və keçmiş məcburi köçkünlərin öz evlərinə geri dönüşünün tezləşdirilməsi baxımından ərazilərin minalardan təmizlənməsinin zəruri olduğunu diqqətə çatdırıb.

Görüş zamanı tərəflər, ikitərəfli gündəlikdə duran məsələlər, regional sülh quruculuğu səyləri və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

Nazir Ceyhun Bayramov səfir Zakari Qrossa gələcək fəaliyyətində uğurlar arzulayıb.

# "Bu gün Şuşa yeni görkəm alır"

## Mixail Qusman: "Qalibiyyətli müharibə nəticəsində ali ədalət zəfər çaldı"

**Şuşa, əlbəttə, rəmzi məna daşıyan şəhərdir. Sovet dövründə bu, bir simvol idi. Biz tamamilə haqlı olaraq onu mədəniyyət paytaxtı adlandırırdıq.**



Azərbaycanda doğulanlarla müqayisə edilə biləcək yazıçıları, rəssamları, bəstəkarları olan hər xalqın, hər ölkənin buna görə öyünməyə haqqı var. Bu, obyektiv həqiqətdir. Əhalisinin 95 faizi azərbaycanlılar olan Şuşanın işğalından daha böyük ədalətsizlik ola bilməzdi. Bu ədalətsizlik 30 il ərzində qəlbimizdə qubar bağlayırdı.

Rusiyanın TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman bu fikirləri "Real" telekanalına müsahibəsində söyləyib.

Həmvətənimiz olan məşhur rusiyalı jurnalist deyib: "Mənə ötən il Şuşada keçirilmiş "Xarıbülbül" Festivalında iştirak etmək xoşbəxtliyi nəsib olub. Ali ədalət zəfər çaldı. Orada biz hamımız sevincimizdən ağlayırdıq. Bu, daxildən gələn bir hiss idi. Bu gün Şuşa yeni görkəm alır. O vaxtdan bir il keçib və artıq üçüncü dəfə Şuşada olmuşam. İkinci dəfə Dünya Azərbaycanlılarının Qurultayında, üçüncü dəfə Mediaforumda. Yeni, dirçələn Şuşanın siması artıq görünür".

**Mixail Qusman Bakıya sevgisini bu sözlərlə ifadə edib:** "Mən doğma şəhərim Bakını hədsiz sevirəm, Azərbaycan mənim tanrımdır. Mən Bakıda doğulmuşam, ömrüm boyu özümü bakılı adlandırmışam, 30 il Moskvada yaşamağıma baxmayaraq özümü moskvalı adlandırmamışam".

Azərbaycanın ən yeni tarixində ən çətin illər haqqında sualın cavabında o bildirib ki, ən ağır illər belə adlandırılan Xalq Cəbhəsinin hakimiyyəti illəri olub. Çünki bu, Qarabağda separatçı hərəkatın başlanması ilə eyni vaxta düşüb: "Yadımdadır, Bakıda hərbi vəziyyətin tətbiq edilməsi dəhşətli idi. Mənə elə gəlirdi ki, Azərbaycan uçurum həddindədir. Xalqın faktiki olaraq ölkəni xilas etməyə çağırdığı Heydər Əliyevin siyasi dühası, siyasi iradəsi, siyasi qüdrəti olmasaydı, bəlkə də bu gün sizinlə söhbət edə bilməzdik. Ola bilsin danışardıq, amma Azərbaycan bu gün olduğu kimi azad, müstəqil və güclü olmazdı".

**Uzun illər Moskvada yaşamasına baxmayaraq, ənənəvi Azərbaycan dəyərlərinin ondan ötrü əhəmiyyətli olaraq qaldığını vurğulayan M.Qusman deyib:** "Mən dostluq deyəndə bakısayağı dostluğu başa düşürəm. Moskvasayağı dostluq bir qədər fərqlidir. Mən dostluq anlayışını çox yüksək qiymətləndirirəm. Hesab edirəm ki, dostların sayı az olsa da, onlar elə adamlar olmalıdırlar ki, sən onlara inanırsan, onlar da sənə inanır".

**Rusiya jurnalistikasının ağsaqqalı "Hakimiyyət formulu" proqramı üzərində işin spesifikliyi, bu verilişin qəhrəmanları olan dünya liderləri barədə danışaraq deyib:** "Hakimiyyət formulu" - daha çox televiziya portretidir. Bu, ya ölkə fonunda qəhrəmanın portreti, ya da bəzən baş qəhrəman vasitəsilə ölkə haqqında söhbətdir. Mən iki dəfə Prezident Obama ilə, Prezident Qəddafi ilə müsahibə hazırlamaq şərəfinə nail olmuşam. Qəddafi ağır energetikalı insan idi, onunla müsahibəm çox çətin oldu. Obama söhbət üçün maraqlı adamdır. Ona görə ki, tamamilə adi ailədən olan bu sadə oğlan hakimiyyətin ən yüksək zirvəsinə çatanda onun qəlbində baş verənləri təsəvvür edə bilirdim. Mən ondan müsahibə götürəndən bir qədər əvvəl o, Senatın nümayəndə heyəti ilə birlikdə Bakıda olmuşdu. Sonradan biz Ağ evin dəhlizində kamera önündə, amma səssiz çəkiliş aparanda o, Bakıya səfərini xatırlayırdı. Görünür, mənim əslən bakılı olduğumu ona demişdilər. O, Bakını, Prezident İlham Əliyevlə görüşlərini xatırlayırdı. Səfərdən çox məmnun idi.

Mən öz müsahibimlə söhbət zamanı kəskin məqamlardan qaçmağa və ya onun xoşuna gəlməyə çalışmıram, digər tərəfdən xoşagəlməz suallar verməyi öz vəzifəm hesab etmirəm. Əgər siz maksimum parlaq, tamdəyərli portret çəkirsinizsə, ağıllı tamaşaçı bu şəxsin kim olmasını özü təyin edəcək. Təhrikedici suallar verməklə tamaşaçıya kömək göstərməyə çalışmaq lazım deyil".

**Mixail Qusman Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və Prezident İlham Əliyev ilə müsahibələri barədə danışarkən deyib:** "Mən öz müsahiblərimə tez-tez belə sual verirdim: "Hakimiyyət formulu nədir?" Rəhmətlik Heydər Əliyevdən müsahibə götürmək şərəfinə nail olmuşam. Bu, nadir hadisə idi. O mənə yarım saat vaxt ayırmışdı, amma faktiki olaraq təqribən iki saat kamera qarşısında söhbət etdik. Mən soruşdum: "Sizin fikrinizcə hakimiyyət nədir, onun dadı-ləzzəti necədir?" O, əvvəlcə ciddiləşdi, bir qədər pauzadan sonra "Acıdır" dedi, sonra isə ürəkdən güldü.

İlham Əliyev məsuliyyət barədə və xalqın sənə göstərdiyi etimada layiq olmağın zəruriliyi barədə suala çox dəqiq cavab verdi. Prezident İlham Heydər oğlu ilə üç dəfə söhbət etmək şərəfinə nail olmuşam. Bu müsahibələrlə çox fəxr edirəm".



## General Bəkir Orucovun həbs edilmə səbəbləri açıqlanıb

**Baş Prokurorluq "Tərtər işi" ilə bağlı məlumat yayıb. Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi vəzifəsini icra edən general-mayor Bəkir Orucovun ittiham olunduğu maddələr məlum olub.**

Trend xəbər verir ki, cinayət işinin istintaqı zamanı ayrı-ayrı hərbi qulluqçulara işgəncə verməsi, onları qanunsuz azadlıqdan məhrum etməsi və digər cinayət əməlləri ilə bağlı əsaslı şübhələr müəyyən edilən Orucov Bəkir Şirin oğlu və Əhmədov Ramil Bəşir oğlu Cinayət Məcəlləsinin 126.3 (ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olan qəsdən sağlamlığa ağır zərər vurma), 145.3 (qanunsuz azadlıqdan məhrum etmə), 293.3 (işgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza), 341.2.2 (vəzifə səlahiyyətlərini aşma) və 341.2.3-cü maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarları ilə həbs qətimkan tədbiri seçilib.

*Xatırladaq ki, bir müddət öncə Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi vəzifəsini icra edən general-mayor Bəkir Orucov hüquq-mühafizə orqanları tərəfindən saxlanılmışdı.*

# Azərbaycan İtaliyanı neftlə təchiz edən əsas ölkədir

## Bu qısa müddətdə əldə edilmiş mühüm nailiyyətdir

**"Azərbaycanla İtaliya arasında əlaqələr son illər sürətlə inkişaf etməkdədir və siyasi dialoq olduqca fəaldır". Bu sözləri millət vəkili Ceyhun Məmmədov deyib. Deputat bildirib ki, 2020-ci ildə İtaliya və Azərbaycan arasında strateji tərəfdaşlığa dair sənədin imzalanması bu fikri bir daha təsdiq edir:**

"Bu baxımdan Prezident İlham Əliyevin İtaliyaya növbəti uğurlu səfəri xüsusi əhəmiyyət daşıyır. Səfərdə bir çox mühüm məsələlər ətrafında geniş müzakirələr aparıldı. İkitərəfli əlaqələrdə önəmli əməkdaşlıq istiqamətlərindən biri təhsil sahəsidir. Azərbaycanın ADA Universiteti İtaliyanın beş aparıcı universitetinin tərəfdaşıdır. Bu əməkdaşlıq ölkələrimiz arasında ikitərəfli münasibətləri daha da möhkəmləndirəcək, Azərbaycan təhsilinin inkişafına töhfə verəcək. İkitərəfli əlaqələrdə digər önəmli bir istiqamət enerji sahəsində əməkdaşlıqdır. Azərbaycan İtaliyanı neftlə təchiz edən əsas ölkədir. 1994-cü ildə müstəqilliyimizin bərpasından, sadəcə, üç il keçdikdən sonra Azərbaycan dünyanın aparıcı enerji şirkətlərini Xəzər dənizində işləməyə dəvət edən ilk ölkə oldu və Azərbaycan Avropa bazarına, əsasən də İtaliyaya neft ixrac edən ölkəyə çevrildi. Bu qısa müddətdə əldə edilmiş mühüm nailiyyətdir".



*Parlament üzvü vurğulayıb ki, dünyada baş verən müxtəlif hadisələr səbəbindən Azərbaycanın təbii qaz ehtiyatlarına tələbat durmadan artır:* "İl yarım ərzində artıq Avropaya 13,5 milyard kubmetr qaz nəql edilib ki, onun da 11,7 milyard kubmetri İtaliyanın payına düşür. Cari ildə İtaliya bazarına 10 milyard kubmetr qazın nəqli planlaşdırılır. Ümumi ixrac 22 milyard kubmetrdən artıq olacaq və burada artım üçün çox böyük potensial var. Heç şübhəsiz ki, Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması bütün ölkələr üçün böyük perspektivlər vəd edir. Sözügedən Memorandum enerji ölkəmizin resurslarının daha da inkişaf etdirilməsi istiqamətində çox vacib addımdır. Bu sənəd gələcək fəaliyyət üçün yol xəritəsidir.

Onu da qeyd etmək lazımdır ki, 2020-ci ilin Vətən müharibəsində Azərbaycanın azad etdiyi ərazilərdə - Qarabağ və Zəngəzurda külək, günəş və hidroenerji stansiyalarının potensialı 10 qiqavatdan çoxdur. Bu imkanlar ixrac üçün əlavə qaz tədarük etməyə kömək edəcəkdir".

**C.Məmmədov əlavə edib ki, ölkəmiz hər zaman müxtəlif ölkələrlə əməkdaşlıq sahələrini tapmağa çalışır:** "Azərbaycan heç bir zaman özünü nəhəng qonşuların siyasətinə uyğunlaşdırmayıb. Dövlətimizin hər zaman öz müstəqil siyasəti olub, hansı ki, beynəlxalq hüquq, ədalət, beynəlxalq təşkilatların qərarları və sənədləri, həmçinin müdriklik üzərində formalaşıb. Artıq 30 ildir ki, ölkəmiz müstəqildir və Azərbaycan vətəndaşları əbədi olaraq müstəqil yaşamaq istəyirlər. Azərbaycan bu gün artıq sabit siyasi mövqeyə və iqtisadiyyata malikdir. Müstəqil və güclü olmaq üçün zamanında əsaslı maliyyə yatırımları edilib. Ölkəmizin inkişafında bu amillər çox ciddi rol oynayır. Müstəqil bir ölkə kimi xarici amillərdən müdafiə olunmaq əsas məqsədlərdəndir. Buna görə də yeni qlobal nizamın regiona təsirləri, böyük region ölkələrinin mövqelərinin necə olacağı, Ermənistanla sülhə nail olmaq istiqamətində ölkəmizin nələr əldə edəcəyi, övladlarımız və yeni nəsillərin gələcəyinin necə olacağı ölkəmiz üçün çox önəmlidir. Təəssüflə qeyd etmək lazımdır ki, müasir dünyada beynəlxalq hüquq normaları tamamilə pozulub. Azərbaycan torpaqları işğal altında olarkən beynəlxalq ictimaiyyətə fəal şəkildə müraciət etmişdi və onlardan ciddi dəstək gözləyirdi. Ancaq Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələri 27 il ərzində yerinə yetirilmədi. Azərbaycan özü bu qətnamələrin icrasını həyata keçirdi. Hər şeyə rəğmən, ölkəmiz gələcəyə böyük nikbinliklə baxır".

**İsmayıl**

# Ermənistan artıq müqavimət göstərmək gücündə deyil

## Əgər təxribatlar davam edərsə, Azərbaycan Ordusunun irəliləmə miqyası genişlənəcək

**Ötən həftə sonu və dünən Ermənistan silahlı qüvvələrinin bölmələri Kəlbəcər və Laçın rayonlarında yerləşən bölmələrimizi müxtəlif çaplı atıcı silahlardan atəşə tutublar. Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb və erməni təxribatının qarşısı alınıb. Erməni silahlı birləşmələri ümumilikdə 19 dəfə atəşkəsi pozub.**

Bunlardan 16-sı Azərbaycan-Ermənistan dövlət sərhədində, digər 3 hadisə isə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlıları tərəfindən törədilib.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə deyib ki, Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan Brüsseldə görüşdükdən sonra sərhəddə hərbi təxribat əməlləri özünü büruzə verdi.** Analitikin fikrincə, insident hərbi məzmunlu olsa da, bunu Nikol Paşinyanın Azərbaycana təqdim etməyə məcbur qaldığı güzəştlər silsiləsi kontekstində izah etmək məntiqi yaranır: "Birincisi, sülh danışığının raundunu hansı tərəfin - Rusiya və ya Avropa İttifaqının təşkil etməsindən asılı olmayaraq, qapalı şəraitdəki danışıqların nəticələri Azərbaycanın sərhəddəki mövqelərinin daha da yaxşılaşdırılmasını şərtləndirir. İkincisi, Azərbaycan Paşinyanın hər dediyinə dərin inam bəsləmir. Onun vaxt uzatmağa dair hiyləgər təcrübəsinin yenidən canlanacağı ehtimalına qarşı sərhədi bütün parametrlər üzrə möhkəmləndirir. Sərhədlərdə mövqelər uğrunda gedən çəkişmədə Azərbaycan özünün dəstəkçisi kimi ən çox Türkiyəyə etibar edir. Hərçənd, Rusiya və Qərb də Bakının mövqeyinə fundamental etiraz səsləndirmirlər. Beynəlxalq miqyasda ortada olan və açıq görünən etirazlar Azərbaycanın əleyhinə olmaq cığırından çıxaraq Rusiya-Qərb rəqabəti çərçivəsinə girir ki, bu da Bakını çox narahat etmir. Çünki sərhəddəki əməliyyat şəraiti və ona nəzarət Azərbaycanın əlindədir və sükanı istədiyi tərəfə döndərmək potensialı yeni mövqelərdə möhkəmlənməklə hər keçən gün inkişaf etdirilir. Tam əminliklə demək olar ki, Azərbaycan sərhəddə Ermənistanın içərilərinə doğru açılan mənzərəni ən müasir texniki vasitələrlə, eləcə də vizual və kəşfiyyat imkanları ilə nəzarətdə saxlayır".



**Ekspert vurğulayıb ki, Ermənistan hər nə qədər çalışsa da, sərhəddə Azərbaycanın atdığı addıma qarşı müqavimət göstərmək gücündə deyil:** "Ermənistanın ordusu dağılıb, şəxsi heyət arasında dərin isterika hökm sürür və komandanlıq başını itirib. Üstəgəl, bu cür xaotik vəziyyət Ermənistan siyasi hakimiyyəti tərəfindən də qəbul edilmiş kimi görünür. Digər yandan, Azərbaycan sərhəd zonasına hərbi texnikalar, ən müasir silahlarla yanaşı, canlı qüvvə olaraq da elit bölmələrin bir qismini yerləşdirib. Şəxsi heyətin başqa hissəsi isə quru qoşunlarının digər bölmələridir ki, bu da mümkün risklərə qarşı hərbi əməliyyatın gücünü artıran vahid vasitəyə çevrilir. Əgər risklər praktiki təzahürlərlə müşayiət edilərsə, Azərbaycan Ordusunun irəliləmə miqyası genişlənəcək. Ermənistanın təxribat məqsədilə güllə buraxdığı atəş nöqtələri bir başqa formada susdurulacaq. Məsələnin siyasi tərəflərində də təəccüb yaradacaq məqamlar axtarmağa dəyməz. Çünki Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsi məsələsində güc mərkəzlərinin balansı dəyişməyib. Türkiyə Azərbaycanın strateji müttəfiqi, Rusiya və Qərb isə strateji tərəfdaşı kimi Bakının mövqeyinə sahib çıxırlar".

**İsmayıl Qocayev**



# İrəvan məcburdur

## İlin sonuna kimi anlaşma mətni hazırlanacaq

**Ermənistanın Baş naziri Nikol Paşinyan hakim partiyasının deputatları ilə qapalı görüş keçirib. Baş nazir Azərbaycanla sülh müqaviləsinin ilin sonuna qədər imzalanacağını bildirib. Paşinyanın deputatlarla görüşündə qarşıdakı dövrdə keçiriləcək yerli idarəetmə seçkiləri, partiyanın qurultayı və s. məsələlər müzakirə olunub.**

İclasın sonunda Nikol Paşinyan Azərbaycan Prezidenti ilə Brüsseldə keçirilən görüşün təfərrütları barədə ətraflı məlumat verib. Baş nazir bildirib ki, bu ilin axırınadək rəsmi Bakı ilə sülh müqaviləsi imzalanmalıdır. Məlumat üçün bildirək ki, avqustun 31-də Azərbaycan və Ermənistan rəhbərləri arasında keçirilən növbəti Brüssel görüşündə sülh prosesi üçün işçi qrupların yaradılması razılaşdırılıb.

**Siyasi elmlər doktoru Cümşüd Nuriyev "Şərq"ə deyib ki, dördüncü Brüssel görüşündən sonra rəsmi İrəvanın Azərbaycana münasibətində çox ciddi dəyişikliklər var.** Professor xatırladıb ki, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan Azərbaycanın sərt reaksiyasından sonra Qarabağa qanunsuz gəlişi ilə bağlı üzr istəyib: "Qriqoryan

**Mümkündür ki, yanvar ayında sülh müqaviləsi Azərbaycan tərəfindən ratifikasiya olunsun**

Xankəndinə siyasi məqsədlər üçün getmədiyini, atasının məzarını ziyarət etdiyini əsas gətirdi. Hər halda Qriqoryanın üzrxahlıq etməsi ciddi hadisədir. Bu, ilk növbədə rəsmi Bakının iradəsini və indiki real mənzərəni ortaya qoyur. Ermənistan ikinci "Qisas" əməliyyatının başlanmasını istəmir. Paşinyan hökuməti sülh sazişinin tez zamanda imzalanmasında maraqlıdır. Əslində Azərbaycan tərəfi də yekun müqaviləni ilin sonuna kimi imzalanmasını istəyir. Paşinyan yaxın günlərdə Moskvaya səfər edəcək. Azərbaycan öz iradəsini bütün tərəflərə qəbul etdirib. Ermənistan da bu iradəni qəbul etmək məcburiyyətindədir. Artıq erməni ekspertlər özləri də oyunu uduzduqlarını etiraf edirlər. Müqavilə ilə məşğul olacaq işçi qruplarının yaradılması istiqamətində iki tərəf də ciddi fəaliyyətə başlayıb. İşçi qrupu ortaq anlaşma mətni üzərində çalışacaq. Sonra tərəflər çərçivə sazişini hazırlayacaqlar. Müqavilənin bütün bəndləri razılaşdırılacaq və iki dildə səhifə-səhifə paraflanacaq. Hətta mümkündür ki, yanvar ayında sülh müqaviləsi Azərbaycan tərəfindən ratifikasiya olunsun".

**C.Nuriyevə görə, Paşinyanın mövqeyi ortadadır və məqsədi aydındır:** "Amma gördüyünüz kimi Paşinyana qarşı addımlar atılır. İrəvanda istefa tələbi ilə aksiyalar keçirilir, eyni zamanda sərhəddə atəşkəs pozulur və s. Rusiyada hərbi elita arasında belə oyunlarda maraqlı olanlar var və bu, şübhəsizdir. Ancaq İrana da diqqət yönəltmək istəyirəm. Əfsuslar olsun ki, Tehran da Ermənistandakı müəyyən gücləri təhrik etməkdə, ara qarışdırmaqdadır. Molla rejimi hələ də başa düşmür ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmək üçün heç kimdən icazə almayacaq. Ermənistandakı radikalları, pozucu qüvvələri təhrik etmək ermənilərlə yanaşı onların təhrikçisinə də zərər verəcək".

**İsmayıl Qocayev**

# Qriqoryan üzr istədi

## İrəvan oyun oynasa da, Bakının reaksiyasını nəzərə almağa çalışır



**"Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın Xankəndinə gəlişinin iki mümkün səbəbi ola bilər". Bu barədə "Şərq"ə siyasi şərhçi Asif Nərimanlı deyib. Analitik bildirib ki, müharibədən sonra Ermənistan hakimiyyəti "yüksək səviyyəli rəsmilərin Qarabağa getməməsi" ittihamı ilə üzləşir.**

Ekspertə görə, belə bir səfərlə Paşinyana "dəstək" nümayiş etdirə bilər: "Hərçənd, bu versiyanı zəiflədən məqamlar var. Qriqoryanın səfəri haqda rəsmi məlumat nə Ermənistan, nə də separatçılar tərəfindən verildi. Sadəcə, özü sosial şəbəkədə bir cümlə ilə foto paylaşdı. Fotodan görünürdü ki, gülqoyma mərasimində tək olub, qondarma rejimin nümayəndələrindən heç biri yanında olmayıb. Məqsəd Paşinyan hakimiyyətinə qarşı "artsax" ittihamlarına cavab olsaydı, rəsmi İrəvan bunu xüsusilə tirajlayardı. Qondarma rejimdən kimlərinsə iştirakı ilə "mərasim" təşkil olunardı. Daha real görünən versiya Qriqoryanın Qarabağdakı daxili vəziyyəti öyrənmək məqsədilə ora getməsidir. Müharibədən sonra Araik Nikolla "əməkdaşlığı" davam etdirsə də, Paşinyanın "status iddiasını aşağı salmaq"la bağlı açıqlamasından sonra keçmiş klan və Rusiya ilə yaxınlıq xəttini seçib. Bunun fonunda Xankəndidə erməni baş nazirə qarşı "satqın" ittihamları artıq qondarma rejimin özü tərəfindən dəstəklənir. İrəvanın Xankəndinə təsir imkanlarının zəifləməsi Azərbaycanla danışıqlarda, xüsusilə sərhəd və kommunikasiyanın açılması prosesində istəklərinə nail olmaq baxımından Ermənistanın əlini zəiflədən məqamdır".

**Ekspert istisna etmir ki, Qriqoryan qondarma rejimlə mövqelərin bərpa edilməsi məqsədilə müzakirələr aparıb:** "Qriqoryanın İrəvan üçün "asan keçməyən" Brüssel görüşündən sonra gəlməsi də xüsusi diqqət çəkir. Mümkündür ki, Paşinyan "Qarabağ kartını" ən azı Bakı ilə müzakirələrdə rıçaq olaraq saxlamaq məqsədilə itirmək istəmir. Qriqoryanın səfəri ilə bağlı maraqlı məqamlardan biri isə "168.jam" saytının mənbələrə istinadən yaydığı məlumatdır. Sayt iddia edir ki, Armen Qriqoryan onun səfərinə Bakının reaksiyasından sonra qapalı kanallarla Azərbaycan tərəfindən üzr istəyib. Səfərinin məqsədinin siyasi yox, şəxsi məsələ olduğunu, ata və anasının məzarını ziyarət üçün getdiyini deyib. Bu məlumatın Ermənistan daxili siyasətində informasiya mübarizəsinin parçası olması da istisna deyil. Hərçənd, Qriqoryanın səfərlə bağlı paylaşımında separatçıların qondarma "müstəqillik gününü" təbrik etməməsi, yalnız, "abidəni ziyarət etdim" qeydini yazması da diqqətdən yayınmır. Görünür, İrəvan bir tərəfdən oyun qurmaqla yanaşı, digər tərəfdən Bakının reaksiyasını da nəzərə almağa çalışır".

**İsmayıl**



# Mitinqlər başlayıb

## Müxalifət Paşinyanı istefaya göndərə bilməyəcək

**İrəvanda erməni müxalifəti Baş nazir Nikol Paşinyanın istefası tələbi ilə növbəti mitinq keçirib. Mitinq zamanı müxalifət hərəkatının liderlərindən biri, deputat İşxan Saqatelyan parlament vasitəsilə Paşinyanın istefasına nail olmaq istədiklərini, lakin bunun üçün geniş ictimai təzyiqə ehtiyac olduğunu bildirib.**

**Baş naziri devirmək üçün parlamentdə 50 faizdən çox səs lazımdır**

Etirazçılar parlamentin üçdə bir hissəsinin, yəni 107 deputatdan 36-sının köməyi ilə etimadsızlıq səsverməsi irəli sürmək niyyətindədirlər. İki müxalifət partiyasının faktiki olaraq 35 imzası var. Paşinyanın getməsinə nail olmaq üçün 50 faizdən yuxarı səs lazımdır. Vurğulanıb ki, müxalifət 36 səs toplayan kimi prosesə başlayacaq. Müxalifət rəhbərləri onminlərlə etirazçını parlamentin önünə mitinqə səsləyiblər. Mitinqin təşkilatçıları hesab edirlər ki, hakimiyyət ordunun gücünü qəsdən zəifləmtməyə çalışır ki, bu da dövlət təhlükəsizliyinə ziddir. Məlumat üçün bildirək ki, Xankəndidə yaşayan ermənilər də etiraz aksiyaları təşkil ediblər. **"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu deyib ki, etiraz mitinqlərinin iki hədəfi var idi - erməni müxalifəti və Azərbaycan.** Analitik bildirib ki, Ermənistan müxalifəti Paşinyanı parlamentdə istefaya göndərmək üçün lazım olan səs sayına malik deyil. Buna baxmayaraq, davamlı mitinqlərlə parlamentdə baş naziri istefaya məcbur etmək və aksiyalar vasitəsi ilə tərəfdarlarının sayını artırmaq istəyirlər. Paşinyanın istefası üçün hakim partiyadan ən azı 20 səs müxalifətə keçməlidir. Müxalifətin buna hansı formada nail olacağı bəlli deyil. Radikallar mitinqlərində Azərbaycanı da "unutmayıblar" və Qarabağla bağlı 3 "şərt" irəli sürüblər. Ermənilərə görə, "Qarabağ Azərbaycan tərkibində ola bilməz", digər yandan "Qarabağla Ermənistan arasında daimi koridor olmalıdır". Həmçinin, "Ermənistan Qarabağın təhlükəsizliyində iştirak etməli və silahsızlaşdırma baş verməməlidir". Bunlar göstərir ki, erməni tərəfi məğlubiyyəti həzm etmək istəmir. Ermənistanda və Xankəndidəki mitinqləri 1980-ci illərin sonunda da yaşamışıq. O zaman ermənilər torpaqlarımızı işğal etdilər, qətliamlar törətdilər və istehkamlar qurdular. 90-cı illərdə bizi hazırlıqsız yaxaladılar. Eyni səhvi təkrarlaya bilmərik. Bu dəfə ermənilərə toparlanmağa imkan verməmək olmaz".

**İsmayıl Qocayev**

# Naşı sürücülər qazanc peşində, ailələr məhv olur

## "Qaçaq" avtobuslarla səfərə çıxmağın hər saatı, hər dəqiqəsi ölümə bərabərdir

**Məlahət Rzayeva**



**Lerik rayonunda yerli turistləri daşıyan avtobus qəzaya uğrayıb. Avtobusun qəzaya uğraması nəticəsində 8 nəfər həyatını itirib, 10 nəfər yaralanıb. Xəsarət alanlar Lənkəran rayonunun Boladi kənd sakinləridir. Yaralılar Lənkəran Rayon Mərkəzi Xəstəxanaya çatdırılıb. Vəfat edənlərin meyitləri Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Pataloji Anatomiya Birliyinin Lerik rayon şöbəsinə təhvil verilib.**

Verilən xəbərə görə, hadisə Lənkəran rayonunun Boladi kəndindən Lerik rayonuna ziyarətə gedənlər geri qayıdarkən baş verib. DİN Lənkəran Regional Qrupunun baş inspektoru, polis baş leytenantı Məhəmməd Rzayev APA-nın sorğusuna cavab olaraq bildirib ki, ilkin ehtimala görə, idarəetmənin itirilməsi səbəbindən içərisində Lənkəran sakinləri olan 10-SX-784 dövlət nömrə nişanlı mikroavtobus yolun kənarındakı beton maneələrə çırpılıb. Faktla bağlı araşdırma aparılır. Hadisə Lerik-Lənkəran yolunun 45-ci kilometrliyində, Lerik rayonunun Günəşli kəndində olub.

**Nəqliyyat məsələləri üzrə ekspert İlqar Hüseynli "Şərq"ə açıqlamasında qeyd etdi ki, son zamanlar ölkədaxili turlar, zəyarətgahlara səfərlərin təşkili intensivləşib. Lakin bu məsələ qanunvericilik əsasında aparılmalıdır:**

- Təəssüf ki, bəzi sürücülər istifadə etdikləri mini-avtobuslardan ölkədaxili turist səfərləri, eləcə də ziyarətgahlara qanunsuz səfərlər təşkil edir. Onların bu səfərlərə icazələrinin, lisenziyalarının olub-olmaması da məlum deyil. Məlum məsələdir ki, rəsmi turlar bahadır, vətəndaşların buna maddi imkanı çatmadığından "qaçaq" avtobuslarla səfərə çıxmağa üstünlük verirlər. Belə avtobus sürücülərinin sərnişindaşıma üzrə kateqoriyalarının olması da sual altındadır. Sərnişindaşıma xüsusi fəaliyyətdir və bunun üçün sürücünün uyğun kateqoriyası olmalı, sürücülük vəsiqəsində bu qeyd edilməlidir. Turlar yaxşıdır, zəyarətgahlara səfərlər də yaxşıdır, lakin səfərə çıxanlar onları kimin apardığını, sürücünün kfalifikasiyasını bilməlidir. Çox zaman bu cür səfərlər günlük olur, səhər tezdən yola çıxıb gecə vaxtı geri qayıdırlar. Bu halda sürücü də yorulur, mənzil başına tez çatmaq üçün tələsir, sürəti artırır, nəticədə bu cür ağır qəzalar baş verir. Ümumiyyətlə, Lerik-Yardımlı yolları çətin keçiləndir. Yol şəraiti ağırdır, relyef çətindir. Yolun ümumi sxemi qəza ehtimalını artırır. Sərt döngələr, yoxuşlar var, yollar, keçidlər dardır. Ümumilikdə təhlükəli yollardır. Belə yollarda hərəkət edən sürücü xüsusilə diqqətli, səbirli olmalı, təmkinini pozmamalıdır, tələsməməlidir. Avtomobili ehtiyatla idarə etməlidir. Avtomobilin texniki vəziyyəti də önəmlidir. Uzun səfərə çıxan avtomobilin texniki vəziyyəti ciddi yoxlanmalıdır. Yollarda baş verən qəzalarda adətən ilkin səbəblər sürücünün ehtiyatsızlığı, təcrübəsizliyi və yüksək sürət olur. Sürəti yüksəldən sürücü döngələrdə, aşırımlarda avtomobili tənzimləyə bilmir, nəticədə qəza vəziyyəti yaranır.

*İ.Hüseynli qeyd etdi ki, baş vermiş qəzaya görə daşıyıcı şirkət də məsuliyyət daşıyır. Hadisənin başvermə səbəbləri aidiyyəti orqan tərəfindən tədqiq ediləcək, günahkarlar qanunun tələblərinə uyğun cəzalanacaqlar.*

# Türkiyə F-16-ları Azərbaycanda

## Birgə taktiki-uçuş təlimlərinin açılış mərasimi keçirilib



**Sentyabrın 5-də "TurAz Qartalı - 2022" birgə taktiki-uçuş təlimlərinin açılış mərasimi keçirilib.**

**Tədbirdə Azərbaycanın və Türkiyənin hərbi qulluqçuları, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və başqaları iştirak ediblər.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən bildirilib.

Əvvəlcə hər iki dövlətin himnləri səsləndirilib, ümummilli lider Heydər Əliyevin və ölkələrimizin müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Hərbi Hava Qüvvələrinin zabiti general-mayor Zaur Rüstəmov qonaqları salamlayaraq vurğulayıb ki, bu cür təlimlərin keçirilməsi birgə fəaliyyətlərinin planlaşdırılması, qarşılıqlı əlaqə və döyüş uzlaşmasının öyrənilməsi, eləcə də axtarış-xilasetmə tədbirlərinin icrası baxımından mühüm əhəmiyyət kəsb edir.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Azərbaycan-Türkiyə dostuq və qardaşlıq əlaqələrinin uğurlu inkişafından, bu münasibətlərin yüksək nəticələrindən danışıb.

Digər çıxış edənlər də təlimlərin başlanması və döyüş aviasiyasının uçuşlarının yüksək səviyyədə keçirilməsi ilə əlaqədar iştirakçılara uğurlar arzulayıblar.

Sonra təlimlərin məqsədi, şəxsi heyətin hazırlığı, yerləşməsi, cəlb edilən qüvvələr, icra edilən tapşırıqlar, aviasiya vasitələrinin uçuşu və istifadəsi barədə brifinq verilib.

Sonda qarşılıqlı hədiyyələr təqdim edilib.

# Mirzoyanla Papkiyan yol ayrıcında qalıb

## XİN başçısı Moskvada, müdafiə naziri isə Vaşinqtonda hesabat verir





Ermənistan ABŞ və Rusiyaya eyni vaxtda yarınmağın təhlükəli olduğunu anlamaqda çətinlik çəkir

İsmayıl Qocayev

**Ermənistan hakimiyyəti iki böyük gücün - Rusiya və ABŞ-ın arasında qalıb. Bunu Ermənistan rəsmilərinin səfər trayektoriyasından müəyyənləşdirmək olar. Ermənistan Xarici işlər naziri Ararat Mirzoyan Moskvaya yollanıb.**

Moskvada rusiyalı həmkarı Sergey Lavrovla görüşən nazir regional təhlükəsizlik, sabitlik, o cümlədən Ermənistan-Rusiya müttəfiqlik münasibətləri ilə bağlı məsələləri müzakirə edib. Görünür, Mirzoyan liderlərin Brüssel görüşünün detallı hesabatını Lavrova verib. Ermənistanın Müdafiə naziri Suren Papkiyan isə əks istiqamətə, ABŞ-a gedib. Onu da Pentaqona çağırıblar. Belə çıxır ki, amerikalılar da İrəvanın Rusiya ilə hərbi əməkdaşlığının səviyyəsini öyrənmək istəyirlər. Üstəgəl, Qarabağ separatçılarının "xarici işlər naziri" David Babayanı da Konqresdə gözləyirlər. İki gün sonra isə Baş nazir Nikol Paşinyan Kreml sahibi Vladimir Putinin hüzurunda olacaq. Paşinyan Putinlə birgə iqtisadi forumda iştirak edəcək. Ekspertlərə görə, Paşinyan və hökuməti Rusiyanın ağalığından imtina edə bilmirlər. Ancaq Vaşinqtonun da şirnikləndirici təkliflərindən vaz keçmirlər. Vaşinqton Ermənistanın Rusiyadan tam imtina edə bilməyəcəyini anlayışla qarşılayır. Kremlin isə bu məsələdə mövqeyi qəti və güzəştsizdir.

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə açıqlamasında bildirib ki, İrəvan həm Moskvaya, həm də onun qatı düşməni Vaşinqtona hesabat verir. Partiya təmsilçisinin sözlərinə görə, Ermənistan indiki qəliz geopolitik situasiyada çaşqın vəziyyətə düşdüyünü qətiyyən gizlədə bilmir:** "Rəsmi İrəvanın atdığı son addımlar xaotik xarakter daşıyır. Gələcək nəticələri də kifayət qədər ciddi suallar doğurur. Ancaq rəsmi İrəvanın unutduğu çox önəmli məqam var. Ermənistan ABŞ və Rusiyaya eyni vaxtda yarınmağın həm təhlükəli, həm də mənasız olduğunu hələ də anlamaqda çətinlik çəkir. İki dövlətin eyni vaxtda Ermənistanı birlikdə müdafiə edəcəklərinə yalnız sadəlövhlər inana bilər. Digər tərəfdən, Cənubi Qafqazda reallıqlar ciddi şəkildə dəyişib. Regionda həm Rusiyanın, həm də Qərbin öz maraqlarını təmin etmələri üçün Ermənistan həlledici faktor deyil. Ermənistanın geopolitik əhəmiyyəti çoxdan beynəlxalq siyasi iradə mərkəzləri tərəfindən ciddiyə alınmır. İndi Cənubi Qafqazda maraqları olan super güclərin ilk növbədə Azərbaycan-Türkiyə tandemi ilə anlaşmaya ehtiyacı var. Ermənistanın gələcək taleyi də məhz bu ittifaqdan birbaşa asılı vəziyyətdədir".



# Yanan "ağciyərlərimizdir"

## Meşə sahələri kameralarla nəzarətdə saxlanmalıdır

Şəymən Bayramova

**Hər il yay fəslində meşə yanğınları təhlükəsi yaranır. Bu təhlükəni artıran isə yay aylarında təbiət qoynunda istirahət edən insanların sayının çoxluğudur. Yəni istirahət edənlərin kiçik bir ehtiyatsızlığı, diqqətsizliyi hektarlarla ərazinin yanmasına gətirib çıxara bilər. Ona görə də təhlükəsizlik qaydalarına əməl edilməsi çox vacib əhəmiyyət kəsb edir.**

Qeyd edək ki, Xızı rayonu Baxşılı kəndində quru otlaq və ağaclıq sahələrinin yandırılması ilə bağlı rayon polis şöbəsinə daxil olan məlumat əsasında əməli törətməkdə şübhəli bilinən şəxslərin kimliyi müəyyən edilib.

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən verilən məlumata görə, aparılan araşdırmalarla müəyyən edilib ki, itirahət zamanı, piknik edən bir qrup şəxs ocağı nəzarətsiz qoyaraq, odun söndüyünə tam əmin olmadan ərazini tərk ediblər və nəticədə yanğının miqyası genişlənib. Davam etdirilən tədbirlərlə əməli törətməkdə şübhəli bilinənlər - Bakı şəhər sakini Taleh Hüseynov və Şəmkir rayon sakinləri İrafiq Mamedov və Bəyoğlan Hüseynov saxlanılıblar.

**"Yaşıl Dünya" Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Elman Cəfərlinin "Şərq"ə açıqlamasına görə, yanğınların qarşısını almaq üçün ilk növbədə meşələrin mühafizəsi gücləndirilməlidir:** "Yeni nəzarət mexanizmləri tətbiq edilməlidir. İkincisi, maarifləndirmə həyata keçirilməlidir. Hazırda ölkədə meşə fondu sahəsi 1213,7 min hektar olmaqla, ümumi ərazinin 14 faizini təşkil edir. Bu, az rəqəm deyil. İşğaldan azad olunmuş bölgələrimizdə xeyli meşə sahələri var. Görünən odur ki, Rayonlardakı Meşə Təsərrüfatı idarələri meşələrin qorunması işinin öhdəsindən gələ bilmir. Türkiyədə Orman Genel Müdirliyi var. "Yaşıl Dünya" Ekoloji Maarifləndirmə İctimai Birliyi olaraq hesab edirik ki, Azərbaycanda da meşələrin qorunmasına və yeni meşə sahələrinin salınmasına cavabdeh olan ayrıca qurum - Meşə Təsərrüfatı Dövlət Agentliyi yaradılmalıdır. Bu qurumun ayrıca meşə mühafizə qüvvələri və yanğından mühafizə briqadaları olmalıdır. Bir atı, yəhərində təklülə tüfəngi olan meşəbəyinin meşə qoruması dövrü çoxdan keçib. Bir adam 100 hektar meşəni hər tərəfinə necə nəzarət edə bilər? Meşə sahələri kameralarla nəzarətdə saxlanılmalıdır. Meşə mühafizəsi işçiləri xüsusi geyim, silah, müasir rabitə vasitələri, "Pikap" tipli avtomobillərlə təchiz edilməlidir. Nəzarət və müşahidə məntəqələri hətta PUA-larla təchiz olunmalıdır".

**Meşələrin ölkənin "ağciyərləri" hesab edildiyini vurğulayan Birlik sədri deyib ki, meşə sahələrinin qorunmasına laqeyd yanaşmaq olmaz. Artıq neçənci faktdır ki, meşə yanğınlarının "piknik" edən vətəndaşlar tərəfindən təsadüfən törədilməsi üzə çıxır:** "Aidiyyəti qurumlar, QHT-lər, TV-lər maarifləndirmə tədbirləri həyata keçirməli, bu məzmunda sosial çarxlar hazırlanmalıdır. İnsanların istirahət üçün meşələrə daxil olmasını tamamilə yasaqlamaq olmaz. Ancaq manqal, samovar qalamaq üçün ayrıca məkanlar olmalıdır. Həmin ərazilərdə meşədən istifadəni özündə ehtiva edən təlimatlar, qaydalar yazılan lövhələr asılmalıdır. Cərimələr tətbiq edilməlidir ki, bəzi məsuliyyətsiz adamlar özlərini yığışdırsınlar.

Meşə yanğınlarına nəzarət üçün könüllülərin cəlbi bir az mürəkkəb məsələdir. Hər halda onlara da öncə treninqlər keçirilməlidir. Həm də piknik ərazilərini müşahidə etmək də çətindir. Meşə sahəsi və istirahət edənlər çoxdur. 1 saat öncə kim harada manqal qalayıb onu necə müəyyən etmək olar? Ən yaxşısı kamera nəzarətidir".

# "Rusiyanın sonunun başlanğıcını izləyirik"

## Kreml bu ay ərzində Kiyevlə danışıqlar aparmağa cəhd edəcək



**"İşğalçılar Krımdan qaçmağa başlayıblar, bu, doğru seçimdir". Bu barədə Ukrayna Prezidenti Vladimir Zelenski deyib. O bildirib ki, Ukrayna bayrağı və azad həyat yenidən Krıma qayıdacaq:**

"Bunun üçün Ukrayna ordusu, xüsusi xidmət orqanları, kəşfiyyat mühüm addımlar atır və bu addımlar artıq duyulmaqdadır". Zelenski vurğulayıb ki, Ukrayna ordusu Donetsk vilayəti və cənub istiqamətində 3 yaşayış məntəqəsini də azad edib: "Donetsk vilayətində böyük irəliləyiş edərək yaşayış məntəqəsini azad edən 103-cü ərazi müdafiəsi briqadasının 63-cü taboruna təşəkkür edirəm. 54-cü briqada da Lisiçansk-Seversk istiqamətində irəli gedərək mühüm yüksəkliyi ələ keçiriblər". Onun sözlərinə görə, 42-ci əlahiddə motoatıcı tabor cənub istiqamətində iki yaşayış məntəqəsini azad edib.

Amerikalı general-leytenant, ABŞ-ın Avropadakı qüvvələrinin keçmiş komandanı, Ben Hodces "Twitter" səhifəsində bildirib ki, Amerika Birləşmiş Ştatlarının hərbi məqsədlərinə Rusiyanın "de-imperializasiyası" daxil edilməlidir: "Mənə elə gəlir ki, biz bu gün gördüyü kimi, Rusiya Federasiyasının sonunun başlanğıcını izləyirik. Buna hazır olmaq lazımdır. Biz SSRİ-nin dağılmasına hazır deyildik". O vurğulayıb ki, Rusiyanın qonşularına qarşı "imperialist müharibələri" Ukraynada başlamayıb: "İnsanların diqqəti indi Ukraynada cəmləşib, lakin Rusiyanın öz qonşularına qarşı imperialist müharibələri Ukraynada deyil, 2008-ci ildə Gürcüstanda başlayıb. Rusiya Moldovanın bir hissəsini işğal etdi. Onlar indi Ukraynada daha qəddardırlar, Ukraynada daha çox əraziləri zəbt edirlər. Lakin bunların hamısı bir-biri ilə əlaqəlidir, bir bütövün hissəsidir. Rusiyanın hələ də burada olduğunu unutmamalıyıq". Mənbələrin məlumatına görə, Rusiya Federasiyasındakı siyasi elita artıq SSRİ-ni "bərpa etmək" planlarının genişləndirilməsinə eyham vurub.

**"Rusiya Ukraynaya üç istiqamətdə yeni zərbəyə hazırlaşır"**

Ukraynalı hərbi ekspert Oleq Jdanov deyib ki, Rusiya ordusu Ukraynaya eyni anda üç istiqamətdən yeni zərbələr hazırlaya bilər: "Bu yolla Kreml hücum illüziyası yaratmağa və Belarusu daha da genişmiqyaslı işğala cəlb etməyə çalışacaq. Biz Rostov və Taqanroq vilayətində texnika və silahlarla dolu qatarları müşahidə etdik. İndi də Belarusdan bizim sərhədimizə, Brest vilayətinə doğru hərəkət edən qatar var. Bu o deməkdir ki, Rusiya eyni anda üç istiqamətdə yeni zərbələr hazırlaya bilər".

**"Ruslar həftədə cəmi 1 km irəliləyir - Böyük Britaniya"**

Böyük Britaniya kəşfiyyatı məlumat yayıb ki, rusların əsas səyləri Donbasda iki istiqamətə cəmlənib. Lakin onlar yavaş-yavaş irəliləyir: "Sentyabrın 15-dək bütün Donetsk vilayətini ələ keçirə bilməyəcəklər. Ukraynanın son hücumlarının qarşısını almaq üçün göstərdiyi səylərə baxmayaraq, Rusiyanın Ukraynadakı əsas istiqaməti demək olar ki, Donbas olaraq qalır. Bu sahədə uğur qazanan qüvvələr Baxmuta doğru həftədə cəmi 1 kilometr irəliləyir. Rusiyanın siyasi məqsədi Donetsk vilayətinin bütün ərazisini ələ keçirməkdir. Rusiya sentyabrın 15-nə qədər Ukrayna qüvvələrini Donetsk vilayətindən sıxışdırıb çıxarmağa çalışır. Onlar bu məqsədə nail olmayacaqlar. Bu, qondarma referendumların keçirilməsini daha da çətinləşdirəcək".

**"Rusiya xəstələri də zorla müharibəyə göndərir"**

Ukrayna ordusunun Baş Qərargahı məlumat yayıb ki, rus hakimiyyəti Ukraynanın müvəqqəti işğal olunmuş ərazilərində xəstələri və veteranları müharibəyə göndərir: "Rusiyanın Ukraynaya hərbi müdaxiləsinin 194-cü günü başlayıb. Ukraynanın müvəqqəti işğal olunmuş ərazilərində məcburi səfərbərlik davam edir. Donetskdə rus işğalçıları canlı qüvvə itkilərinin artırılması üçün "yeni mənbə" aşkar ediblər. Belə ki, bu yaxınlarda Rusiya ordusunun nümayəndələri şəhərdəki yerli xəstəxanalara gələrək xəstələri zorla müharibəyə aparıblar".

Çeçenistan rəhbəri Ramzan Kadırov deyib ki, "Əhməd" xüsusi təyinatlı dəstəsi və "Luqansk xalq respublikası"nın ikinci korpusu Donetsk ərazisində genişmiqyaslı hücuma keçib: "Döyüşçülərimiz Soledar, Yakovlevka, Seversk istiqamətində fəal şəkildə irəliləyirlər. Bütün sirləri açıqlamayacağam, amma hazırladığımız plan sayəsində düşmən bütün mövqelərini ortaya qoydu".

**"Müharibənin gələn ilə kimi davam etməsi gözlənilir"**

**Politoloq Məhəmməd Əsədullazadə deyib ki, Ukrayna ordusunun əks-hücuma keçməsi Moskvanı çıxılmaz vəziyyətə salıb. Ekspertin sözlərinə görə, Rusiya şərq və şimal istiqamətində qoşunlarını Krımın müdafiəsinə cəlb edir:** "Xersonun azad edilməsi, Rusiyanın Qara dəniz donanmasına təhlükə yaradıb. Rusiya hərbi gəmiləri Krım limanlarına yaxınlaşa bilmir. Hərbi əməliyyatlar uğurla davam edərsə, Rusiya şimaldan növbəti cəbhə aça bilər. Amma hərbi nöqteyi-nəzərdən Rusiya quru əməliyyatlarında əvvəlki kimi uğurlu hərbi əməliyyatlar keçirə bilməyəcək. Rusiyanı şimal istiqamətində digər legioner batalyonlar qarşılaya bilər. Ümumiyyətlə, müharibənin gələn ilə kimi davam etməsi gözlənilir. Rusiya tərəfi bu ay ərzində Kiyevlə danışıqlar aparmağa cəhd edəcək. Ankarada Rusiya və Ukrayna nümayəndə heyətləri Türkiyənin vasitəçiliyi ilə danışıqlar masasına əyləşə bilər. Növbəti danışıqlarda psixoloji və hərbi üstünlüyə malik olan Ukrayna Rusiyanın 24 fevral sərhədlərinə çəkilməsini tələb edəcək".

İsmayıl

# Həbs dalğası genişlənəcək

## Cəza alacaq ən axırıncı adam general Bəkir Orucovdur



"Tərtər işi"ndə günahlandırılan şəxslərin 1 faizi belə hələ məsuliyyətə cəlb olunmayıb

**Müdafiə Nazirliyində "Tərtər işi" ilə bağlı yeni həbs dalğası başlayıb. Həbs olunanlar arasında Nazirliyin Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi vəzifəsini icra edən, general-mayor Bəkir Orucov da var. General barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçilib. Bəkir Orucov bundan əvvəl Cəmşid Naxçıvanski adına Hərbi liseyin rəisi olub.**

"Tərtər işi" ilə bağlı ötən müddət ərzində işgəncəyə və digər qanunsuz əməllərə məruz qalmış 288 yeni şəxs müəyyən edilərək zərərçəkmiş şəxs qismində tanınıb. Ümumən isə cinayət işləri üzrə indiyədək 405 zərərçəkmiş şəxs müəyyənləşib. Lakin zərərçəkənlərin sayının daha çox olduğu deyilir. Barmaqlıqlar arasına göndərilənlərdən biri də ədliyyə mayoru, hərbi hüquqşünas Rahib Məmmədovdur. O, həmçinin, Rahib Bəşər imzası ilə yazıçı-şair kimi də tanınır. 8 kitabın müəllifidir. Baş Prokurorluqdan verilən digər məlumata görə, "Tərtər işi" çərçivəsində haqlarında hökm çıxarılmış 19 şəxsin məhkəmə qərarlarına yenidən baxılmasına qərar verilib.

**Ehtiyatda olan polkovnik, hərbi ekspert Üzeyir Cəfərov "Şərq"ə bildirib ki, həbs olunan Bəkir Orucov "Tərtər işi"ndə son söz sahiblərindən deyil. Ekspertə görə, generaldan savayı qərar qəbul edən digər şəxslər də var:** "Həmin şəxslərin 1 faizi belə hələ məsuliyyətə cəlb olunmayıb. Bəkir Orucov icraedici olub. Onun hərbi hissəyə kimisə qeyri-qanuni çağırtdırmaq, fiziki işgəncəyə məruz qoymaq üçün birbaşa səlahiyyəti olmayıb. İstintaq prosesində tamam başqa adlar çəkilir. Adı çəkilən insanlar istintaqa cəlb olunmayana, onların hərəkətlərinə hüquqi qiymət verilməyənədək "Tərtər işi" ilə bağlı narazılıq bitməyəcək. Baş Prokurorluq ümumi işin çox cüzi hissəsini görüb. Amma bu işlər çoxdan görülməli idi. Neçə müddətdir İstintaq qrupu yaradılıb və üzərindən aylar keçib. Ləng tərpənmək olmaz, çevik işləmək lazımdır. İndi deyirlər ki, "istintaq tam, hərtərəfli və obyektiv aparılır". Halbuki, öncəki istintaqın da bu şəkildə aparıldığı vurğulanmışdı. Əgər əvvəlki istintaqda problem olmayıbsa, yeni istintaq qrupu niyə yaradılıb? Deməli, problemlər olub. İndiki İstintaq qrupu da əvvəllər bu sahədə nöqsanlara yol verildiyini açıqlayıb. Bu işləri aparan müstəntiqlər, o cümlədən dövlət adından qərar çıxaran hakimlər də məsuliyyətə cəlb olunmalıdır. İşi yarımçıq görmək olmaz. Hər şeyi də Bəkir Orucovun üzərinə atmaq doğru yanaşma deyil. Əmin olun, prosesdə cəzalandırılması labüd olan ən axırıncı adam general-mayor Bəkir Orucovdur".

İsmayıl Qocayev

Məlahət Rzayeva

# Təhlükə hər gün yeni şəkil alır

## Pandemiya valideynləri smartfon bataqlığına salıb

**”Koronavirus pandemiyası bizi həm də smartfon bataqlığına saldı. Uşaqlar evdə onlayn dərslərə qoşula bilsin deyə, valideynlər məcburiyyət qarşısında onlara müasir mobil telefonlar aldı, amma nəzarət məsələsi yenə arxa planda qaldı. Hətta 8 yaşlı uşağın da şəxsi smartfonu, planşeti var. Bu vəziyyətdə uşaq təhlükəli oyunlara da baxa bilər, tanımadığı, şübhəli, alçaq məqsədlər güdən şəxslərlə mesajlaşa, tanış olub görüşə də bilər”.**

Bu fikri ”Şərq”ə açıqlamasında sosioloq Lalə Mehralı 2021-ci ildə Zabrat qəsəbəsində azyaşlı qıza qarşı edilmiş əxlaqsız hərəkətin başvermə səbəbləri barədə danışarkən dedi. Hadisə barədə məlumat bundan ibarətdir ki, Bakının Sabunçu rayonunda 1985-ci il təvəllüdlü Ənvər Dadaşov yetkinlik yaşına çatmayan Gülşənə (adlar şərti verilib - red.) əxlaqsız hərəkətlər edib. KIV-də yer alan məlumatda qeyd olunur ki, hadisə bu il aprel ayının 1-də Zabrat qəsəbəsində baş verib. Ənvər özünə məxsus ”Skoda Rapid” markalı avtomobilin arxa oturacağında cinsi ehtirasını təmin etmək məqsədilə Gülşənin öz razılığı ilə əxlaqsız hərəkətlər edib. İstintaq orqanı tərəfindən Ənvərin barəsində Cinayət Məcəlləsinin 153.2-ci (on dörd yaşına çatmayan şəxs barəsində əxlaqsız hərəkətlər etmək) maddəsi ilə ittiham elan edilib. Cinayət işi üzrə təqsirləndirilən şəxs qismində ifadə verən Ənvər ona elan olunmuş ittiham üzrə özünü təqsirli bilib. O bildirib ki, 2021-ci il iyulun əvvəllərində ”İnstaqram” sosial şəbəkəsində Gülşən adlı qızla tanış olub: ”Gülşənin yaşını soruşmasam da, onun azyaşlı olduğunu bilirdim. Onun fotoşəkillərinə baxmışdım və ondan çox xoşum gəlmişdi. Gülşən ilə ”İnstaqram” sosial şəbəkəsində bir müddət yazışdıqdan sonra görüşmək qərarına gəldik. İlk olaraq birinci dəfə Gülşən ilə 20 iyul 2021-ci ildə Zabrat qəsəbəsi, İstixana Kombinatında görüşdük. Gülşən idarə etdiyim ”Skoda Rapid” markalı avtomobilimə əyləşdi. Gülşən ilə bir az söhbət etdikdən sonra onu evlərinə yola saldım”. Təqsirləndirilən şəxsin sözlərinə görə, həmin gün aralarında hər hansı bir münasibət olmayıb: ”Gülşənlə yalnız söhbət etdik. Sonra Gülşən ilə yenə də ”İnstagram” sosial şəbəkəsində danışarkən aramızda müəyyən anlaşılmazlıq olduğu üçün sözlə mübahisə etdik. Gülşən profilimi blok etdi. Sonra başqa profil açaraq Gülşənə yazdım və nə üçün məni blok etdiyini, onunla yenidən görüşmək istədiyimi bildirdim. Lakin Gülşən cavab yazmadı. Bir neçə gün keçdikdən sonra Gülşənlə yenidən danışmağa başladıq”. Ənvər qeyd edib ki, 1 aprel 2022-ci ildə Gülşən ona yazaraq görüşmək istədiyini bildirib: ”Mən də razılaşdım. Həmin gün onunla Zabrat qəsəbəsində İstixana yolunda görüşdük. Gülşən yenidən idarə etdiyim avtomobilimə əyləşdi. Gülşənin razılığı ilə ona yaxınlaşdım. Azyaşlı olduğu üçün onunla cinsi əlaqədə olmadım. Gülşən xahişimlə intim hərəkətlərimizi mobil telefonla videoya çəkdi”. Ənvər ifadəsinin sonunda etdiyi əməldən peşman olduğunu, zərərçəkmiş tərəfdən etdiyi əmələ görə üzr istədiyini deyib. Bu cinayət işinə Sabunçu Rayon Məhkəməsində baxlılıb. Məhkəmənin hökmü ilə Ənvər 2 il müddətinə azadlıqdan məhrum edilib.



*Sosioloq: "Təhsil Nazirliyi ilə Rabitə, Yüksək Texnologiyalar Nazirliyi birgə işləməli, dövlət proqramı hazırlanmalıdır. Yetkinlik yaşına çatmamış şəxslərin telefonlarına xüsusi filtr proqramları yüklənməlidir"*

**Sosioloq Lalə Mehralı bu səpkili hərəkətlərin baş verməsində ilk növbədə valideyn nəzarətsizliyini əsas gətirir:**

- Məsələnin kökündə yenə də valideynlərin məlumatsızlığı, savadsızlıq, cahillik, övlada lazımi qaydada nəzarətin olmaması, səhlənkarlıq dayanır. Bunların hamısı bir-biriylə bağlı səbəblərdir. Mən ”savadsız” dedikdə valideynin ali təhsilsiz olmasını qətiyyən nəzərdə tutmuram. Söhbət ali və ya orta, yaxud da ümumiyyətlə, təhsilli-təhsilsiz olmaqda deyil. Elə təhsilsiz valideynlər var ki, bilikli, istedadlı, ailəyə, ümumiyyətlə, Azərbaycan ailə dəyərlərinə uyğun övlad yetişdirirlər, el-oba onlarla fəxr edir. Və əksinə, ali təhsilli, yüksək vəzifə sahibi valideynlər var ki, övladları, cəmiyyətin üz qaralarıdır. Məsələ, valideynin övladına hansı formada nəzarət etməsindədir. Demirəm, uşağın hər addımı izlənməlidir, halbuki, yaşadığımız həyat, əslində bunu tələb edir. Uşağa elə formada nəzarət etmək olar ki, onun özü bundan xəbərsiz olsun. Daim ata-ananın gözünün onun ”üstündə” olduğunu hiss etməsin. Sərbəst hərəkət etsin, özünü müstəqil hesab etsin. Belədə uşaqda müsbət keyfiyyətlər, bacarıqlar üzə çıxa bilər. Lakin valideyn gizli-aşkar, daim övladına nəzarət etməlidir. Kiminlə dostluq edir, dostu ilə münasibətləri necədir, sinif yoldaşları ilə necə davranır, onunla necə davranırlar. Yetkinlik yaşındakı övlada isə xüsusi nəzarət lazımdır. Mən 15 yaşlı oğlumun hər addımından xəbərdaram. Çünki onu hansı təhlükələrin gözləyə biləcəyini dərk edirəm, bilirəm. Valideyn övladının salamat olmasını, sağlam şəraitdə böyüməsini istəyirsə, ciddi nəzarət etməlidir. Nəzarət də təkcə gecə-gündüz uşağı izləməkdən ibarət olmamalıdır. Valideyn övladının maraqlarını, istəklərini bilməlidir, onunla daim ünsiyyətdə olmalı, hansı problemlər yaşadığını bilməlidir. Belədə nə valideyn övladını ”itirəcək”, nə də övlad ata-anasını. Və onlar arasında mənəvi bağ yaranacaq. Açıq deyirəm, pandemiya biz valideynləri samrtfon bataqlığına saldı. Məcburiyyət qarşısında qalıb uşaqlara smartonlar alındı ki, onlayn dərslərə qoşula bilsinlər. Bəzən uşaqlar da onlayn dərsləri bəhanə edib ata-anadan mobil telefon, planşet tələb etdilər. Belə bir çıxılmaz vəziyyət yarandı. Lakin bu, o demək deyildi ki, valideyn uşağın onlayn dərsdən sonra mobil telefonda nələrə baxdığı, nələri izlədiyini, kiminlə danışdığını və tanışdığı ilə maraqlanmasın. Xüsusi filtr proqramlar var, hansı ki, zərərli videolara, zərərli şəbəkələrə girişi bloklayır. Təəssüf ki, valideynlərin çoxu bundan xəbərsizdir, məlumatları yoxdur. Valideynlər heç özləri də təsəvvür etmir ki, övladları hansı zərərli sosial şəbəkələrə qoşula bilər, onları hansı təhlükə gözləyir. Çünki məlumatsızdılar.

L.Mehralı qeyd etdi ki, smartfonlara xüsusi izləmə proqramları da yükləmək mümkündür, bunun sayəsində övladın hansı saatda harada olduğunu bilmək olar:

- Müasir texnologiyalar geniş imkanlar verir. Filtr proqramlarla yanaşı, izləmə proqramları da yükləmək olar. Satış mərkəzləri üçün bu, maraqlı deyil, onlar satış barədə düşünür. Amma valideynlər məlumatlı olsalar, elə satış məntəqəsində bu proqramları smartfonlara yükləyə bilərlər. Uşaqların nəzarətsiz qalmasının bir səbəbi də repetitor hazırlıqlarıdır. Məlum məsələdir ki, valideynlər məktəb direktorları ilə razılığa gəlir, uşaqlar məktəbə yox, repetitor dərslərinə gedir, məktəbdən evə dönmək zamanı bilinmir, dərsdə olmurlar, deyirlər, dərsdəyik, məktəb şagirdə, valideyn də övladına nəzarəti itirir. 14-15 yaşlı oğlan və ya qız, hansı səbəblə, dərsdən sonrakı vaxtda evdən kənarda qalır? Qohumugilə gedirsə, qohumla əlaqə saxlansın, kənar məşğələlərə gedirsə, yenə də məşğələ müəllimi ilə əlaqə saxlanmalıdır. Ata-ana uşağın harda, kimin yanında olduğunu, nə işlə məşğul olduğunu bilməlidir. Valideyn telefonlara baxsın, görsün, uşaq kiminlə danışır, kiminlə yazışır. Ümumiyyətlə, bu məsələ ilə bağlı, hesab edirəm ki, Təhsil Nazirliyi ilə Rabitə, Yüksək Texnologiyalar Nazirliyi birgə işləməli, dövlət proqramı hazırlanmalıdır. Yetkinlik yaşına çatmamış şəxslərin telefonlarına xüsusi filtr proqramları yüklənməlidir. Bu, kiminsə təkbaşına, fərdi qaydada öhdəsindən gələcəyi iş deyil. Burada birgə iş, əməkdaşlıq lazımdır.

# "Proseslərdən zərərli çıxmamışıq"

## Əziz Əlibəyli: “Rusiya Qarabağ prosesini monopoliyasında saxlamaqda maraqlıdır”



**”Azərbaycan Prezidenti dünyanın ən nüfuzlu beyin mərkəzlərinin birində iştirak edirdi. Türkiyə ilə Azərbaycan birlikdədir mesajını verdi. Bu ismarıcın hansı qüvvələri qıcıqlandırdığı məlumdur”.**

*Bu sözləri ”Şərq”ə açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib.*

O, Rusiya və İran məsələsinin önə çıxdığını vurğulayıb:

”İtaliyanın Çernobbio şəhərində baş tutan beynəlxalq forumda moderator sual verdi. Dedi ki, Rusiya ilə tarixi əlaqələrə malik bir regionda olmaq nə dərəcədə çətindir? Dövlət başçısı isə cavabında ”Biz heç bir zaman özümüzü nəhəng qonşularımızın siyasətinə uyğunlaşdırmamışıq” - deyə söylədi.

Belə açıqlamalardan sonra V.Putin İlham Əliyevlə telefonla danışdı. Rəsmi Moskva Qarabağ prosesini monopoliyasında saxlamaqda maraqlıdır və kifayət qədər də buna nail olmağı bacarır. Biz isə proseslərdən zərərli çıxmamışıq. ”Qisas” əməliyyatı keçirildi, Zabux, Sus və Laçın azadlığına qovuşdu”.

*Qeyd edək ki, avqustun 31-də Prezident İlham Əliyev, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın Baş naziri Nikol Paşinyanla dördüncü Brüssel görüşü keçirilib. Sentyabrın 2-də isə dövlət başçısı İtaliyada səfərdə olub. Bütün toplantılardan dərhal sonra sentyabrın 3-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Prezidentinə zəng edib.*

**Aygün Tahir**

# "Qisas" dərs olmalıdır

## Düşmənin təxribatlarına ağır cavab veriləcək

**”Ermənistanda belə bir ”dəsti-xətt” var: Böyük görüşlər keçirilən ərəfədə, sülhə doğru addım atıldıqda təxribatlara yol verirlər”.**

Bu sözləri millət vəkili, siyasi analitik Arzu Nağıyev ”Şərq”ə açıqlamasında düşmən tərəfin Kəlbəcər istiqamətində təxribat cəhdlərinə münasibət bildirərkən deyib.

Onun sözlərinə görə, Brüsseldə baş tutan danışıqlardan sonra təhriketmələrin ardı-arası kəsilmir:

”Bu gün Rusiya da, Avropa İttifaqı da sülhün tənzimlənməsində birmənalı şəkildə iştirak etməyə can atır. Bundan başqa, digər bir məsələ Paşinyan hakimiyyəti ilə keçmiş ”Qarabağ klanı” arasında gedən mübarizədədir.



Paşinyan paralel olaraq, həm sülhə çağırış edir, həm də qondarma ”status” mövzusunu dilə gətirərək, vətəndaşları sakitləşdirmək üçün bir variant axtarmağa çalışır. Eyni zamanda Xankəndidəki separatçı rejimin sabiq ”müdafiə naziri” Mikael Arzumanyan tutulub. Çünki Qarabağ ərazisində övladları həlak olan əsgər anaları Paşinyanın həbsini tələb edirdilər.

Lakin Ermənistanın baş naziri qəfil M.Arzumanyanı azadlıqdan məhrum etməklə günahkarlardan birinin o olduğunu göstərmək istəyir. Sabiq ”nazir” quldurbaşı Araik Arutyunyanın ən yaxın adamlarından biridir. Ona görə də bu proseslərdə təxribat yaratmalıdır ki, müəyyən qədər fikir yayındıra bilsin. Lakin Azərbaycan qalib tərəf kimi hərəkət edir. Delimitasiya və demarkasiya, sülh sazişinin imzalanması və digər istiqamətlərdə öz siyasətimizi davam etməkdəyik. Düşmən tərəfin avqust ayının 4-5-də Laçında törətdikləri provokasiyaya görə ordumuzun keçirdiyi ”Qisas” əməliyyatı Ermənistana dərs olmalıdır. Əks halda Azərbaycan öz problemlərini hərbi yolla da həll etmək iqtidarındadır”.

**Sücayət Mehti**

# Məktəblərdə dərsdənkənar məşğələlərin təşkili qaydası təsdiqlənib

**”Ümumi təhsil müəssisələrində dərsdənkənar məşğələlərin (fakültativ kursların) təşkili Qaydası” təsdiqlənib.**



“Şərq”-in məlumatına görə, bununla bağlı elm və təhsil naziri Emin Əmrullayev müvafiq əmr imzalayıb.

Dərsdənkənar məşğələ şagirdlərin meyil, maraq və qabiliyyətinə uyğun olaraq, biliklərinin genişlənməsinə, yaradıcılıq qabiliyyətinin inkişafına və peşəyönümünə yönəlmiş məşğələ formasıdır.

Qaydaya görə, ümumi təhsil müəssisəsində dərsdənkənar məşğələlərdə şagird sayının aşağı həddi 8 (səkkiz) nəfər olaraq müəyyənləşdirilir. Dərsdənkənar məşğələyə bütün sinif cəlb olunur. Fənnin (fənlərin) tədrisinə ayrılan saatlar istisna olmaqla, şagird sayı 8 (səkkiz) nəfərdən az olan siniflərdə dərsdənkənar məşğələlər 2 və ya 3 sinfin (məsələn,

V-VI, V-VI-VII, VI-VII, VI-VII-VIII və s.) şagirdlərindən ibarət təşkil edilmiş qrupda (qrupda şagird sayı ən azı 8 (səkkiz) nəfər olmaqla) birgə tədris olunur.

Tədris ili ərzində sinifdə (qrupda) şagird sayının azalması dərsdənkənar məşğələnin fəaliyyətinin davam etməsinə təsir göstərmir. Paralel siniflərdə təhsil alan şagirdlər müxtəlif mövzulu dərsdənkənar məşğələ qruplarında komplektləşdirilə bilər. Dərsdənkənar məşğələdə iştirak üçün təhsilalanlar arasında seçim aparılmır.

Dərsdənkənar məşğələyə ayrılan saatlar Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları”na əsasən müəyyən edilir və şagirdlərin dərs yükünə daxildir.

Dərsdənkənar məşğələ saatlarının miqdarı həftəlik saatların maksimal miqdarının 20 faizindən çox ola bilməz. Dərsdənkənar məşğələlərin proqramı ən azı 34 saat (həftədə 1 saat olmaqla) nəzərdə tutulur.

Əmrin icrasına nəzarət nazir müavini Muxtar Məmmədova həvalə edilib.

# Özəl bağça seçərkən diqqətli olun!

## Reklamlara, bər-bəzəkli binalara inanmayın

**Sosial şəbəkələrdə Nizami rayonunda yerləşən ”Mehnur” loqopedik reabilitasiya mərkəzində azyaşlılara işgəncə verilməsi ilə bağlı görüntülər yayılıb.**



Daxili İşlər Nazirliyi tərəfindən müvafiq araşdırma aparılıb və mərkəzin psixoloqu Aytac Kazımlı və mərkəzin direktor köməkçisi vəzifəsində çalışan Səbinə Əliyarbəyli saxlanılıb. Saxlanılan şəxslər barəsində Cinayət Məcəlləsinin 133-cü (əzab vermə) maddəsi ilə cinayət işi başlanılıb. Mərkəzin direktoru Nuranə Hacızadə artıq Nizami Rayon Polis İdarəsinin müvəqqəti saxlanma yerinə yerləşdirilib.

**”Mehnur”da baş verənlərdən sonra jurnalist İlkin Pirəlinin ”facebook” hesabında azyaşlı övladının bağçalardan birində işgəncə görməsi ilə bağlı paylaşımı diqqət çəkib. Həmkarımız bu barədə ətraflı ”Şərq”ə danışıb:** ”Qızım iki ay əvvəl bağçaya gedib, guya yıxılıb, başı əzilib. Amma kamera görüntüləri yoxdur. Hər yerdə kamera quraşdırılıb, amma ”bisetka” tərəfə quraşdırılmayıb. Bu, şübhəlidir. Bizi inandırdılar, işin üstünə getmədik, ”uşaq yıxılar da, əzilər də” prinsipindən yanaşdıq. Amma bir daha o bağçaya qoymadıq. ”Bağçam” uşaq bağçaları şəbəkəsinə (İndiqo) daxil olan ”Baby Star”la bağlı dediklərim sırf özəl bağça məsələsinə diqqət çəkmək üçün olub. Tövsiyə edirəm ki, valideynlər özəl bağça seçərkən diqqətli olsunlar. Reklamlara, bər-bəzəkli binalara aldanmasınlar. Nə bilirsiniz, o binaların içərisində nələr baş verir? Biz aldandıq. Siz aldanmayın! Hələ guya biz hansı bağçanın daha yaxşı olduğunu öncədən araşdırmışdıq. Əgər həmin vaxt əmin olsaydım ki, uşağı vurublar, dərhal hüquqi müstəvidə addımlar atardım, şəxsən özüm də cavablarını lazımınca verərdim. Bir bağçanın əməkdaşının və rəhbərliyinin qarşısında aciz qalacaq deyiləm. Bundan sonra onların cəzası ictimai qınaq olsun. Çünki xeyli müddət də keçib. Əsas odur, ictimailəşdirdik, tanıdılar, bildilər. Bir daha hər kəsi ehtiyatlı olmağa çağırıram. Digər bir vacib məqam özəl bağçalara dövlət nəzarətinin olması ilə bağlıdır. Göbələk kimi yayılıblar. Bakının hər rayonunda 10-15 özəl bağça var. Kim bunlara nəzarət edir? Monitorinqlər aparılmalıdır, müəllimlərin psixoloji durumları yoxlanılmalıdır, lisenziyalarına yenidən baxılmalıdır. İnsanların dövlət bağçalarına inamı sarsılıb, özəl bağçalara üz tuturlar, sonu da belə olur ”.

**Günəş Mərd**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

**Uşaq və gənclərin fiziki və mənəvi inkişafı ölkəsinin, yaşadığı cəmiyyətin, xalqının inkişaf göstəricisidir. Çünki istənilən uşaq hansı mühitdə böyüyürsə, gələcəkdə məhz o mühitdə görüb-götürdüklərini nümayiş etdirir.**

Ölkə başçısı respublikamızda uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədilə mütəmadi olaraq dövlət proqramlarının həyata keçirilməsi istiqamətində sərəncamlar imzalayır, bu kontekstdə mühüm tədbirlər görülür. Bununla yanaşı, ölkəmizdə uşaq və gənclərin fiziki və mənəvi inkişafı üçün ayrı-ayrı təşkilatlarda mühüm addımlar atılır.

Hazırda dövlət səviyyəsində uşaq və gənclərin mənəvi və fiziki inkişafı üçün geniş şərait yaradılıb. Ölkəmizdə uşaq və gənclərin həyatını dəyişən, onlara hərtərəfli stimul verən qayğı siyasəti mövcuddur.

Amma dövlətin yeritdiyi siyasətə kölgə salan, uşaqlara fiziki-mənəvi inkişaf adı altında travma yaradan özəl mərkəzlərin olması valideynlərdə ciddi narahatlıq doğurub. İki gündür ki, "Mehnur" loqopedik və psixoloji reabilitasiya mərkəzində loqopedlər tərəfindən azyaşlı əlil uşaqlara qarşı zorakılıq və işgəncə görüntüləri ölkə gündəmini zəbt edib . Xüsusi qayğıya ehtiyacı olan, auitizmli, daun sindromlu azyaşlı uşaqları saçlarından tutub, təpikləyib, üzlərinə şillə vuran "psixoloq"ların ifşa olunması bu cür mərkəzlərdə müalicə alan uşaqların valideynləri arasında ciddi təşviş yaradıb. Reabilitasiya adı altında işgəncələrə məruz qalan uşaqlar tək bu hadisə ilə bitmir. Dəfələrlə bu cür hadisələri özündə əks etdirən videogörüntülərə şahid olmuşuq. Halbuki, özəl və ya dövlət təhsil müəssisələri, reabilitasiya mərkəzləri üçün uşaqların təhlükəsizliyi hər zaman ön planda olmalıdır. Aidiyyəti qurumlar tərəfindən davamlı monitorinq və nəzarət olmalıdır ki, bu kimi xoşagəlməz hallar təkrarlanmasın.

Psixoloqların fikrincə, bu cür hadisələrə görə travmanı uşaqlardan çox valideynlər yaşayır. Minlərlə yardıma ehtiyacı olan uşaqların valideynləri aldığı psixoloji travmadan övladlarını bu cür mərkəzlərə aparmağa qorxur və körpələr xəstə yaşamağa məhkum qalır.



# Onlarla işləmək səbir tələb edir

## Sağlamlığı məhdud körpələrin xüsusi qayğıya ehtiyacı var

**"Azərbaycan Uşaqlar Birliyi"nin sədri Kəmalə Ağazadə bildirib ki, uşaqlar üçün olan reabilitasiya mərkəzləri mütləq şəkildə ixtisaslaşmış olmalı, orada xidmət göstərən insanlar bu sahə üzrə təcrübəli olmalıdırlar:** "Hər kəs mərkəz açıb reabilitasiya adı altında fəaliyyət göstərə bilməz. Çox təəssüf ki, bu gün uşaqlara qayğı və dəstək adı altında fəaliyyət göstərən mərkəzlər heç də öz işlərini peşəkar səviyyədə görmürlər. Sizin də bildiyiniz kimi bir çox mərkəzlərdə uşaqlara qarşı şiddətin olmasına dair məlumatlar gəlir. Ona görə də bu cür mərkəzlərə mütləq şəkildə nəzarət gücləndirilməlidir".

**Psixoloq Elnur Rüstəmovun sözlərinə görə, bu cür hadisələrin baş verməməsi üçün Azərbaycanda psixoloqların loqopedik fəaliyyətlərinə nəzarət edən Qeyri-Hökumət Təşkilatları olmalıdır.** Dünya praktikasında belə qurumlar geniş yayılıb. Amerika Psixoloqlar Assosasiyasını buna misal göstərmək olar. Belə təşkilatlar psixoloqların fəaliyyətinə nəzarət həyata keçirirlər. Onlar etik prinsipləri də daim diqqətdə saxlayırlar. Şübhəsiz, Azərbaycanda da belə bir qurumun olması çox yaxşı olardı. Belə təşkilatlar sayəsində bu cür hallar baş verməzdi. Mütəxəssislər bu məsələdə diqqətli və həssas olmalıdırlar. Xüsusən də uşaqlarla işləyən mütəxəssislər son dərəcə diqqətli olmalıdır. Uşağa heç bir halda şiddət göstərmək olmaz. QHT-lər tərəfindən bu işlərə nəzarət olunmalı, monitorinq aparılmalı, nə kömək lazımdırsa, göstərilməlidir".

### "Reabilitasiya mərkəzindəki uşaqlar daim diqqət mərkəzində olmalıdır, monitorinqlər həyata keçirilməlidir"

**Psixoloq Vüsalə Əmiraslanova isə "Şərq"ə açıqlamasında deyib ki, uşaqların fiziki və mənəvi inkişafı üçün sevgi və diqqət mütləqdir. Sağlamlığı məhdud olan uşaqlara isə xüsusi qayğı və diqqət göstərilməlidir:** "Nitqində, eşitməsində müəyyən problemlər olan uşaqlar həssas və əsəbi olurlar. Xüsusən autizm sindromundan əziyyət çəkən uşaqlar fikirlərini izah edə bilmirlər deyə onlarla səbrlə işləmək lazımdır. Ümumiyyətlə, biz hirslənəndə, sevinəndə nitqimiz emosiyalarımızı ifadə etməyə bizə çox kömək edir. Ona görə də emosiyalarını bildirə bilməyən uşaqlar çığırırlar. Emosiyalarını, fikirlərini, ağrısını-acısını bildirə bilməyən uşaq daha da aqressivləşir, daha da sinir sistemi pozulur, daha da vəziyyəti pisləşir".

*Psixoloqun sözlərinə görə, sözügedən videoda görüntülənən işgəncə faktoru nəinki xəstə, hətta sağlam uşaq üçün də çox ciddi travmadır:* "Bu gün həmin sahədə ciddi nəzarətin olmaması sonda bu kimi problemlərin üzə çıxmasına şərait yaradır.

Əvvəllər xarici təcrübədə auitizimli uşaqları danışdırmaq üçün işgəncə xarakterli dərslər keçirilib, onlara müəyyən bacarıqlar aşılanıb. Amma müasir psixologiya bu cür metodları qəbul etmir. İndiki uşaqlara daha səbrli və diqqətli yanaşmaq lazımdır. Psixoloq və ya pedaqoq uşaqlara əvvəl sevgi göstərib, özünə inam yaratmalıdır. Bu cür uşaqlar xüsusi yanaşma və müalicə tələb edirlər. Onları döymək, onlara qışqırmaq heç nəyi dəyişməyəcək, əksinə, onun sağlamlıq durumu daha da pisləşəcək və müalicəsi çətinləşəcək".

**Şəymən**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Müharibə insanlarının ürəkləri doludur

## Onlara təkcə psixoloq yox, sosioloq, hüquqşünas, həkim də lazımdır



**Türkiyə Respublikasından gələn peşəkar psixoterapevtlər və Fövqəladə Hallar Nazirliyinin (FHN) psixoloqlarının birgə iştirakı ilə Vətən müharibəsi ilə bağlı psixoloji problemlər yaşayan vətəndaşlara ödənişsiz psixoloji yardım tədbirləri davam etdirilir. Bu barədə FHN-dən məlumat verilib.**

Məlumata görə, müharibə iştirakçılarının, qazilərin, o cümlədən doğmalarını itirmiş şəhid ailəsi üzvlərinin, erməni terrorundan fiziki və mənəvi zərər görmüş insanların psixoloji reabilitasiyasının daha səmərəli təşkili məqsədilə 5 sentyabr 2022-ci il tarixindən etibarən FHN-in dəvəti ilə Türkiyədən gəlmiş 20 nəfərdən artıq peşəkar psixoloq Vətən müharibəsi ilə əlaqədar psixoloji sarsıntı yaşayan vətəndaşlarımızın reabilitasiyasını həyata keçirəcəklər.

**Hərbi ekspert, psixoloq Azad İsazadənin "Şərq"ə açıqlamasına görə, müharibə zamanı posttravmatik stres pozuntu yaşayan insanlar keçirdikləri emosional hallara, təşviş və həyəcanlara qarşı mütləq mütəxəssis yardımı almalıdır:** "Məsələnin çıxış yolu ümumi reabilitasiya proqramının qəbul olunmasıdır. Hər psixoloq bu işlə məşğul ola bilməz. Hərbi travma ilə işləyən xüsusi psixoloqlar hazırlanmalıdır. Hərbi travma ilə məşğul olan psixoloqlarımızın sayı çox azdır. Paralel olaraq da qazilərin sosial və maddi problemləri aradan qaldırılmalıdır. Psixoloqlar psixoloji reabilitasiya ilə məşğul olmalıdır, ancaq paralel olaraq sosioloji reabilitasiya da olunmalıdırlar".

Psixoloq həmçinin müharibədən sonra da bir qrup türk mütəxəssislərin Azərbaycana gələrək əhaliyə psixoloji yardımlar göstərdiyini xatırladıb: "Həmin şəxslər də Fövqəladə Hallar Nazirliyinin dəvətilə gəlmişdi. Həmin vaxtlar psixoloqa çox ehtiyac vardı, ölkədə olan kadr potensialı yetərli deyildi. Çünki hər psixoloq müharibə iştirakçısı, müharibədən əziyyət çəkən əhali ilə işləməyi bacarmır. Bu mənada Türkiyədən gələn mütəxəssislərin də işin bir hissəsini öz üzərlərinə götürmələri müsbət hadisə idi".

*Psixoloqun sözlərinə görə, müharibədən əziyyət çəkən insanlara sonra uzun müddət müxtəlif, sırf psixososial reabilitasiyalar lazımdır. Bu reabilitasiya tədbirləri isə ən azı 6 ay, 1 il müddətində davam etməlidir:* "Müharibə qurbanı olan insanlar ciddi psixoloji təsirlərə məruz qaldıqlarından bu təsirlərin davamı kimi xəstə uşaqlar dünyaya gəlir, ailələrdə gərginlik yaşanır.

Biz başa düşməliyik ki, bu, bir döyüş şəkli deyil. Bu, onların 44 gün ərzində yaşadıqlarının, keçirdikləri streslərin nəticəsidir. Elə insan var ki, birinci döyüşdə elə dəhşətli hadisələrlə qarşılaşır ki, sonrakılar ona yüngül, heç nə kimi görsənir. Ancaq elələri də var, xırda-xırda yığılır. Birində dostu yaralanıb, digərində özü yaralanıb, kontuziya alıb, huşunu itirib, bunlar da getdikcə yığılaraq sonradan hansısa formada özünü büruzə verir. Ona görə də biz bu işi davamlı edirik. Sözsüz ki, türk psixoloqların yenə gəlməsi bu baxımdan kömək ola bilər. Yəqin ki, ilk növbədə qazilərimizə yardım ediləcək. Çünki əhali yavaş-yavaş bu vəziyyətdən çıxır. Müharibədə iştirak etmiş bütün hərbçilər psixoloji baxımdan hansısa formada travma alıb. Biz ona postravmatik sindrom deyirik. Fiziki cəhətdən yaralanmayıb, amma kəskin psixoloji stres keçirib. Müharibədə insan öldürüb, dostlarını itirib, ölüm qorxusuyla yaşayıb, daimi aqressiv vəziyyətdə olub. Döyüş vaxtı hərbçidə aqressiya olmasa döyüş apara bilməz. Aqressiya həmin an müsbət rol oynayır. Amma döyüşdən sonra insanda o aqressiyanı götürmək bacarığı olmalıdır. Vaxtilə hərbi psixologiya qurumu olmadığına görə hərbçilərimizlə hərbi hissələrdə psixoloji iş aparılmayıb. Bunlar ordudan qorxu və aqressiyayla ailələrinə qayıdıblar. Yaralanmayıb, kompensasiya almayıblar. Amma reallıqda o, qazidir, psixoloji travma keçirib və 2 ilə yaxındır ki, bu vəziyyətdə yaşayıb. Biz onlarla işləyirik və görürük ki, bu insanlar arasında ailə zorakılığı həddindən artıq çoxalıb".

Psixoloqun sözlərinə görə, bu proses uzun müddətlidir. Bu problemlər 1-2 ildən sonra da olacaq, hansısa başqa formada. Sözsüz ki, zərərçəkmiş əhaliyə yerlərdə yardımı yaxınlaşdırmaq lazımdır. Hər rayonda hansısa reabilitasiya mərkəzinin böyük avadanlıqla təmin olunmuş bina olması mütləq deyil. Əsas odur ki, orada mütəxəssislər olsun. Təkcə psixoloqlar yox, sosioloq, vəkil, hüquqşünas, hətta həkim də lazımdır. Onlar həmin insanlara izah etməlidirlər ki, nəyi necə əldə edə bilərlər və ya bilməzlər, hansı hüquqları var və s. Müharibədən qayıtmış insanlarla danışmaq, onları dinləmək lazımdır. Onların ürəkləri doludur".

**Şəymən**

**İqtisadiyyat üzrə fəlsəfə doktoru Aygül İsayeva Gürcüstandakı Azərbaycandilli məktəblərin düşdüyü acınacaqlı vəziyyət barədə sosial şəbəkədə paylaşım edib: "Gürcüstanda fəaliyyət göstərən Azərbaycan məktəblərinin sayı həm ilbəil azalır, həm də ki, müxtəlif səpkili problemləri artır.**

Təəssüflər olsun ki, bir çox məktəblərdə məktəb direktorları Azərbaycan dili və ədəbiyyat fənni üzrə dərs saatlarını 5 saatdan 3 saata kimi azaltmağı planlaşdırırlar (artıq edənlər də var). Milli məktəblərimiz kütləvi surətdə bağlanaraq sayı 183-dən (1989-cu il) 116-ya (2022-ci il) qədər azalıb. 116 məktəbdən 79-u Azərbaycan, yerdə qalanı isə sektor, qarışıq məktəblərdir (Azərbaycan-gürcü; Azərbaycan-rus və s.). Gürcüstan Respublikasının təhsil qanunvericiliyinə görə, əgər milli azlıq nümayəndələri gürcü və ya sektor məktəblərində təhsil alırlarsa, məktəb onlara ana dili üzrə fənnin tədris edilməsi təklifini irəli sürmək hüququna malikdir. Belə olan halda 1 qrupda şagirdlərin sayı minimum 10 nəfər olmalıdır. Məsələn, tutaq ki, "A" ictimai məktəbi əvvəllər ancaq Azərbaycandilli məktəb idisə, sonradan bu məktəbdə əlavə olaraq gürcü sektoru açmaqla Azərbaycan-gürcü sektoru yaratdılar. Məktəbin tam səlahiyyəti var ki, gürcü sektorunda təhsil alan azərbaycanlı şagirdlər üçün Azərbaycan dili və ədəbiyyat fənninin tədrisini təşkil etsin. Bizim bəzi direktorlar (və ya direktoru əvəz edənlər) isə öz hüquqlarından istifadə edib gürcü və rus sektorlarında Azərbaycan dili və ədəbiyyat fənninin tədrisini təşkil etmək əvəzinə, əksinə, Azərbaycan məktəblərində, eləcə də Azərbaycandilli şöbələrdə daha da dərs saatını azaltmağa çalışırlar... Adamda vicdan yaxşı şeydir "



# Gürcüstanda Azərbaycandilli məktəbləri barmaqla saymaq olar

## Rafiq İsmayılov: "Bu çox təhlükəli haldır, dövlət səviyyəsində iş görülməlidir"

**Qaldırılan problem barədə "Şərq"ə rəyini bildirən professor Rafiq İsmayılov vəziyyətin bu həddə çatmasının bir neçə səbəbi olduğunu dedi:**

- Əvvəla, belə məsələlər dövlətlərarası razılaşmalar əsasında həll olunur. Azərbaycanda da gürcüdilli məktəblər var və Azərbaycan dövləti bu məktəbləri hər cür dərs ləvazimatları ilə təmin edir. Dərsliklər tərcümə edilir, məktəblərə çatdırılır. Gürcüstanda Azərbaycandilli məktəblərin sayının azalması, təbii ki, mənfi haldır. Amma vəziyyəti o həddə gətirib çıxarırlar ki, Gürcüstan dövləti ərazisində yaşayan soydaşlarımız məcbur olub gürcü dilində, ya da rus dilində təhsili seçir. Çünki tələbat bu dildə təhsil alanlaradır. İşlə təmin olunmaq üçün dövlət dili - gürcü dilini bilmək tələb olunur, soydaşlarımız da məcburdur bu dili öyrənsin, ali məktəblərə daxil olmaq üçün gürcü dilində təhsil alsın. Digər tərəfdən, ana dili - Azərbaycan dilində tədris resursları da zəifdir, azdır. Soydaşlarımız da görür ki, ana dilində təhsilə üstünlük versələr, tədris resurslarına çıxışları olmayacaq, lazımi bilikləri əldə edə bilməyəcəklər. Elə bizim özümüzdə də rusdilli, ingilisdilli tədris resursları Azərbaycandilli resurslara nisbətən azdır. Valideyn istəyir ki, övladı ana dilində təhsil alsın, amma müqayisə etdikdə, qeyri-Azərbaycan dilli tədris resurlarının daha geniş olduğunu, daha əhatəli bilik verdiyini görür və o dildə təhsili seçir. Yəni biz qınamaqdansa, aparılan işin həcminə, keyfiyyətinə baxmalıyıq. Gürcüstanda olduğu kimi, Azərbaycanda da ilk növbədə keyfiyyətli təhsil, tədris resurslarının əlçatanlığını tələb etməliyik. Günahlandırmaq asandır, amma səbəblərə göz gəzdirməliyik. İnanmıram ki, Gürcüstandakı Azərbaycan məktəblərinin direktorları Azərbaycan dili və ədəbiyyatı fənninin dərs saatlarını özbaşına azaltsınlar. Bu, təhsil şöbələrindən, aparılan dərs bölgüsündən asılıdır. Dərs bölgüsü necə tərtib edilirsə, tədris ili boyunca elə də davam edir. Əlbəttə, bu, xoşagəlməz, təhlükəli haldır, lakin bununla bağlı dövlət səviyyəsində iş görülməlidir.

**Məlahət Rzayeva**

# Kirayə evlərin qiyməti bahalaşdı

## Mənzil bazarında qıtlıq yaranıb



***Elnur Fərzəliyev: "İldən-ilə binalarda kirayə verilən ucuz mənzillərin sayı azalır, qiymətlərində isə artım müşahidə edilir"***

**Ali təhsil müəssisələrində dərslərin başlamasına sayılı günlər qalıb. Artıq Azərbaycanın müxtəlif bölgələrində yaşayan tələbələr kirayə mənzil axtarışı ilə paytaxta üz tutur.**

Paytaxtda yerləşən universitetlərdə təhsil alan, xüsusilə də ali məktəbə yeni qəbul olan tələbələr və onların valideynləri normal şəraitdə münasib qiymətə ev tapmaqda çətinlik çəkirlər. Ya qiymət bahadır, ya da evin vəziyyəti ürəkaçan deyil.

Ekspertlərin araşdırmasına görə, avqustun sonundan etibarən paytaxta tələbə axınının artması nəticəsində kirayə mənzillərin qiyməti 10 faiz artıb. Əmlak məsələləri üzrə ekspert Elnur Azadovun sözlərinə görə, hazırda paytaxtda kirayə mənzillərə tələbat çoxdur: ”Kirayə mənzillərə tələbat hər il bu vaxtı artır. Bunun da əsas səbəbi paytaxtda təhsil alan tələbələrin regionlardan qayıtmasıdır. Təkliflər getdikcə azalır, tələbat artır. Ərazidən və otaq sayından aslı olaraq kirayə mənzillərin qiyməti dəyişir. Hazırda ən ucuz birotaqlı ev Bakıətrafı qəsəbələrdədir. Burada birotaqlı kirayə mənzil hazırda 300 manatdır. Metronun ”Xalqlar Dostluğu” və ”Neftçilər” stansiyasının yaxınlığında yerləşən birotaqlı mənzillərin qiyməti 350 manatdan 400 manata qədər artıb. Ən yüksək tələbat Yasamal rayonu və ”Elmlər Akademiyası” metro stansiyasının ətrafıdır. Bu ətrafda birotaqlı mənzilin aylıq kirayə haqqı 400 manat və daha yuxarıdır. Tələbələr arasında əsasən ikiotaqlı mənzillərə tələbat çoxdur”, - deyə ekspert qeyd edib.

E.Azadov bildirib ki, qiymət artımının oktyabr ayının birinə qədər davam edəcəyi və mənzillərin qiymətinin oktyabrın 15-də stabilləşəcəyi gözlənilir”.

**Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev isə ”Şərq”ə açıqlamasında deyib ki, ildən-ilə binalarda kirayə verilən ucuz mənzillərin sayı azalır, qiymətlərində isə artım müşahidə edilir:** ”Səbəb isə paytaxtda gedən söküntü işləridir. Köhnə binaların sökülməsi həmin binalardakı ucuz mənzillərin kirayə bazarından çıxması ilə nəticələnir. Yəni pilot layihələr əsasında köhnə mənzillərin sökülməsi ucuz mənzillərə tələbatın artmasına gətirib çıxarır. Üstəlik, köhnə binalarda yaşayan ailələrin özləri və orada kirayə qalanlar əlavə yer axtarmalı olurlar. Bu səbəbdən də kirayə bazarında bahalaşma prosesi gedir. Söküntü işləri isə davamlı olaraq gedir. Əvvəllər köhnə beşmərtəbəli binalarda birotaqlı mənzil təqribən 300 manat, ikiotaqlı mənzil 400 manata idisə, həmin bina sökülür, yerində daha geniş və tam təmirli bina tikilir, həmin binada birotaqlı mənzilin kirayə qiyməti 500 manat, ikiotaqlının isə 600 manat olur. Bakıda köhnə binaların söküntüsü hələ uzun müddət davam edəcək ki, bu da mərhələli şəkildə ucuz qiymətə olan kirayəlik mənzillərin kirayə bazarından çıxmasına səbəb olacaq”.

**E.Fərzəliyevin sözlərinə görə, şəhər mərkəzində ”Sovetski” və digər ərazilərdə ucuz qiymətə kirayə mənzillər olurdu. Bu ərazilərdəki evlərin söküntüsü də paytaxtda ucuz kirayə mənzil tapmağı daha da çətinləşdirib:** ”Ali təhsil müəssisələri yaxınlığında, Yasamal rayonu və Təbriz küçəsində 100-150 manata ümumi həyət evləri kirayəyə təklif edilirdi. Təbriz küçəsi, Qarabağ küçəsi və digər paralel küçələrin böyük hissəsi artıq sökülüb. Orada yeni binalar tikildiyinə görə, həmin ərazilərdə ucuz kirayə mənzil tapmaq çətinləşib”.

Ekspertin sözlərinə görə, bölgələrdən tələbələrin gəlişi ilə əlaqədar Bakıda kirayə mənzil qiymətləri artıb və bazarda qıtlıq yaranıb. Hər il sentyabr ayında minlərlə tələbənin bölgələrdən Bakıya üz tutması minlərlə mənzilin tələbələr tərəfindən kirayələnməsi deməkdir. Nəzərə alaq ki, tək tələbələr deyil, Bakı sakinlərinin də bir hissəsi kirayədə qalır. Şəhərdə yaşayan yeni ailə qurmuş gənc cütlüklər də kirayə mənzil tapmaqda çətinlik çəkir. Köhnə evlərin davamlı olaraq sökülməsi insanların ucuz mənzil tapmasına çətinlik yaradır. Artıq məcburən bir otaqda 3-4, bəzən 5 tələbə yaşayır ki, kirayə pulunu ödəyə bilsinlər. Bu il ali təhsil müəssisələrinə qəbul olan tələbələrin sayı daha çox oldu. Bu da qiymətin daha çox artmasına gətirib. İyun-iyul ayları ilə müqayisədə hazırda Bakıda kirayə mənzillərin qiymətində 15-20 faiz artım müşahidə edilir. Yayda 300-350 manata olan mənzillər indi təqribən 400 manata təklif olunur”.

*E.Fərzəliyevin dediyinə görə, kirayə mənzillərə əsas tələbat Yasamal rayonundadır. Çünki ali təhsil müəssisələrinin çoxu bu rayonda yerləşir. Yasamalda ev tapmayan tələbələr hansısa metro stansiyasına yaxın ərazidə ev tapmağa çalışırlar. Bəzən qiymətlər baha olanda tələbələr Bakı ətrafında yerləşən Abşeron, Xırdalan, Masazır kimi ərazilərə üz tuturlar. Belə olanda həmin tələbənin hər gün ali məktəbə gedib-gəlməsi bir neçə saat vaxt itkisinə səbəb olur:* ”Yeni tikililərlə müqayisədə ümumi həyət evinin kirayə qiyməti nisbətən münasibdir. Birotaqlı həyət evi 150, ikiotaqlıların qiyməti isə 200 manatdır: ”Köhnə 3-5 mərtəbəli bina evlərində birotaqlı mənzillər 300-400 manat, ikiotaqlılar 400-500 manat, üçotaqlılar isə 500-700 manata təklif edilir. Təzə binalarda isə birotaqlı mənzilin kirayə qiyməti təxminən 500 manat, ikiotaqlı mənzil 600 manatdır. Bunun üzərinə kommunal xərcləri də gələndə qiymətlər 15-20 faiz artır”.

Ekspertin fikrincə, bu problemlərin aradan qaldırılması üçün tələbə yataqxanaları mütləq şəkildə bərpa edilməlidir, ya da universitetlər bölgələrə köçürülməlidir: ”Bu zaman tələbələr üçün kirayə mənzil tapmaq daha rahat olar. Əgər torpaq sahəsi varsa, köhnə yataqxanaları söküb yerində daha müasir, hüdürmərtəbəli böyük yataqxanalar tikməklə həm tələbələrin çətinliyi aradan qalxar, həm də kirayə mənzil bazarındakı problem həll olar. Bakıda universitetlərin və fakültələrin sayı artdıqca tələbələrin də sayı artır. Onların yaşaması üçün kirayə evlərin sayı isə azalır. Bu da ciddi problemlərə gətirib çıxaracaq. Bir otaqda bir neçə tələbənin qalması onların dərs oxuyarkən bir-birinə mane olmasına və nəticədə təhsillərində geriləməsinə səbəb ola bilər”.

**Şəymən Bayramova**

## Əmir Teymurun məzarı niyə açılıb?

Stalinin bu əmrindən sonra müharibə başlayıb



**1336-cı ildə Özbəkistanda doğulmuş Əmir Teymur 1405-ci ildə Çinə gedərkən Qazaxıstanda vəfat edib və Səmərqənddə dəfn edilib.**

”Şərq” xəbər verir ki, İkinci Dünya müharibəsi illərində Sovet lideri İosif Stalin Əmir Teymurun məzarının araşdırılması üçün açılmasını əmr edib. Bundan sonra 19 iyun 1941-ci ildə məşhur antropoloq Mixail Gerasimovun başçılığı ilə bir qrup əsgər Əmir Teymurun məzarını açmaq və sümüklərini çıxarmaq üçün qəbiristanlığa gəliblər.

Səmərqəndlilər buna qarşı çıxıb. Türbə açılmazdan əvvəl Gerasimov və onun adamlarını Əmir Teymurun lənətindən xəbərdar ediblər. Deyiblər ki, Əmir Teymuru məzarında narahat edənlərin 3 gündən sonra ölkələrinə bəlalar gələcək.

Qeyd edək ki, Əmir Teymurun qəbir daşının üzərində ”Ölümdən oyananda bütün dünya titrəyəcək”, məzarının içərisində isə ”Kim qəbrimi pozarsa, məndən də dəhşətli bir işğalçını azad edər” sözləri yazılıb. Lakin sovetlər buna inanmır, qəbri açıb sümükləri götürüblər.

Bundan üç gün sonra almanlar Sovet İttifaqına müharibə elan edərək onun ərazisini işğal etməyə başlayıblar. Bu qanlı müharibədə çoxlu sovet əsgəri həlak olub. Stalin bu savaşda verdiyi itkilərdən sonra Teymur xanın lənətinə inanıb. 1942-ci ildə onun sümüklərini islami üsullarla qəbrində basdırıb. Bundan bir neçə gün sonra Stalin Stalinqradda almanları məğlub edib.

## “İnstagram"da ən çox izləyicisi olanlar bəlli oldu

Rövşən Kərim, Roza Zərgərli və Jaffa ön sıralarda gəlir



**Azərbaycanda ”İnstagram”da ən çox izləyicisi olan influenserlərin siyahısı izləyici sayına görə müəyyənləşdirilib.**

Top 10-luğu tamamlayan son 3 influenserə gəlincə, Rövşən Kərim 2 milyon izləyici ilə 8-ci, Roza Zərgərli 1.9 milyon izləyici ilə 9-cu, Jaffa isə 1.8 milyon izləyici ilə 10-cu pillədədir.

Azərbaycanlı bloqer və biznesmen Jaffa izləyici sayına görə 10-luğu sonuncu tamamlasa da, paylaşımlarına gələn ortalama ”bəyənmə” sayına görə ikincidir.

**Aygün**



## Yasamalda zəbt olunan torpaq sahələrinin hasarları söküldü

**Yasamal rayonu Zaur Kərimov küçəsi 31/47 ünvanında bina qarşısında vətəndaşlar tərəfindən zəbt edilmiş torpaq sahələrinin hasarları sökülüb.**

Yasamal rayon Mənzil-Kommunal Təsərrüfat Birliyindən APA-ya verilən məlumata görə, ərazi təmizlənir və müvafiq qaydada abadlıq işləri aparılır.

Eyni zamanda, Yasamal rayonunda yağış barmaqlıqları qum, yarpaq, ağac qırıntıları və digər tullantılardan təmizlənib. Hazırda yağış barmaqlıları hazır vəziyyətə gətirilir, yuyulur.

# "Azərbaycanda kişi obrazını dağıtmaq istəyirlər"

## Qərib Babayev: “İndi kişilər botoks etdirib, qaş aldırır, lazer epilyasiyasından istifadə edirlər”

**”Azca sağlamlığa zərər verməyən köklük, qarındakı yağlanma, saçların tökülməsi - keçəllik müəyyən yaşdan sonra mübarizə aparılası, utanılası bir şey olmamalıdır. Hər kəs gur, qapqara saçlı, sıfır yağ bədənli olmaq məcburiyyətində deyil”.**

*Bu sözləri aparıcı Turan İbrahimov sosial şəbəkədə yazıb. O, plastik əməliyyat etdirənləri tənqid edib:*

”Saç əkdirmək, boyatmaq, bədən şəkilləndirmək təbiətimizə zidd olduğu kimi, individuallığımızı da əlimizdən alır. Artıq hər kəs bir-birinin kopyası olmağa başlayıb. Gənc və sağlam qalmaq hər zaman əsas hədəfimiz olmalıdır. Amma buna sağlam həyat tərzi sürməklə nail olmalıyıq, özümüzü büt edib, sitayiş etməklə yox. Kim deyib ki, normal həddə kilolu olmaq çirkinlikdi? Kim deyib ki, seyrək saçlı, keçəl olmaq yaxşı deyil? Normal kişi gigiyenası yerində, səliqəli, təmiz geyimdə, ən əsası da işində-gücündə oldumu bəsdir. Məncə...”. **Sosioloq Qərib Babayevin sözlərinə görə, indi kişilər sadəcə saç əkdirib, saç boyatmır. Bəzi kişilər lazer epilyasiyasından istifadə edir, manikür-pedikür edib qaş-üz aldırır. Hesab edirəm ki, bununla bağlı konkret maarifçilik tədbirləri keçirilməlidir:** ”Azərbaycan kimi ölkələrdə bu kimi halların mövcud olması xoşagələn deyil. Səhnəyə çıxan kişilərin əksəriyyəti üz-qaş aldırıb, botoks etdirir, qaşlarını qaldırırlar, saç rənglədirlər. Gənclər də onlara baxıb pis örnək götürür. Vaxtında onlara qarşı ictimai qınaq olsaydı, proses bu həddə çatmazdı. Təəssüf ki, bizdə ictimai qınaq çox zəifdir. Oğlanlar arasında qaş aldıranların, epilyasiyadan istifadə edənlərin sayı durmadan artır. Qulaqlarına sırğa taxanlar bu gün cəmiyyətdə qaş aldırmağı təbliğ edirlər. Oğlanlar, kişilər arasında saç boyatmaq, bədən şəkilləndirmənin yayılması həm bir sosioloji, həm də psixoloji problem kimi cəmiyyəti təhdid edir. Azərbaycan xalqının adət-ənənəsində, ailə sistemində kişinin xüsusi obrazı var. Amma son illər bu obrazı dağıtmaq istəyirlər. Cəmiyyət olaraq bu mənfi tendensiyaya qarşı mübarizə aparmalıyıq. Kişinin qadın kimi özünə sığal verməsi qəbuledilməzdir. Bunun cəmiyyətdə təbliğ edilməsi mənəvi aşınmaya səbəb olan haldır”.



**Şəymən**

# 98 ildir 53 yaşı var

## İstifadə edilən iynələrin dünyada tayı-bərabəri yoxdur



*(Əvvəli səh: 8-də)*

**Alimlərin fikrincə, Lenin əgər basdırılmazsa, eyni şəkildə daha 500 il saxlanıla bilər.**

Rusiyanın ”Russia Today” televiziyasının saytında yer alan xəbərə görə, rus xalqının 60 faizi Leninin cənazəsinin dəfn olunmasını dəstəkləyir. 1924-cü il yanvarın 27-dən Qızıl Meydanda olan Lenin üçün dövlət xəzinəsindən də pul xərclənir. Mumiyaya qulluq üçün ayrılan büdcənin 500 min dollar civarında olduğu təxmin edilir.

Leninin mumiyalanması çox çətin bir prosesdən sonra baş verib. Onun bədənini qorumaq üçün yeni üsullar hazırlayan elm adamları biotibbi elmdə inqilab kimi xarakterizə edilə bilən üsullar tapıblar. Leninin bədənini qorumaq üçün vurulan iynələrdə istifadə edilən mayelər gözəllik sahəsində iz qoyan botoks və in vitro gübrələmə müalicəsində istifadə edilir.

Dr. Vladimir Vorbiyev və biokimyaçı Boris Zbarski inqilab liderinin cəsədini balzamlamaq üçün 4 aylıq səy göstəriblər. Bu müddət ərzində Leninin bədəninə tez-tez xüsusi mayelər yeridilir, bədənin bütövlüyü təmin edilirdi. Bədənin çürüməyə başlayan hissələrini örtmək üçün də arı mumu istifadə olunurdu.

Bədənin çürüməsinin qarşısını almaq üçün alimlər Leninin bədəni üçün kauçukdan kostyum hazırlayıblar.

Leninin cəsədi hər 6 aydan bir yoxlanılır. Mumiyanın xarab olmasının qarşısını almaq üçün istifadə edilən bütün mayelər yenilənir. Gövdə, quruluş, kif və çürük zədələr yoxlanıldıqdan sonra yuyulur.

**Turan**




## Azercell öz şəbəkəsinin genişləndirilməsini yüksək templə davam etdirir

**Azercell Telekom şəbəkəsinin genişləndirilməsi və modernləşdirilməsinə dair işlərin ilk mərhələsini başa çatdırıb.**

Şirkət bu genişmiqyaslı layihəni avqust ayının əvvəlində həyata keçirməyə başlayıb və bu müddət ərzində Beyləqan, Ağcabədi, Lerik, Qusar, Quba, Füzuli, Astara, Şəki və Yardımlıda quraşdırılmış 250 baza stansiyasında təkmilləşdirmə işləri aparıb. Şirkət qeyd olunan rayonlarda abunəçilərini daha da keyfiyyətli bağlantı və yüksəksürətli mobil internet xidmətləri ilə təmin etməyə müvəffəq olub. Bunun sayəsində Azercell müştəriləri mobil tətbiqlər, təhsil platformaları, sosial şəbəkələr, videozənglər, videokonfranslar və digər rəqəmsal xidmətlərdən praktiki istifadə təcrübəsini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaqlar. Layihə çərçivəsində lider mobil operator müştərilərinin sürətlə artan ehtiyaclarını qarşılamaq və gözləntilərini üstələmək məqsədi ilə növbəti 18 ay ərzində bütün respublika boyunca 300-dən çox yeni radio baza stansiyası quraşdıracaq və 1600-ə yaxın mövcud baza stansiyanı təkmilləşdirəcək. İşğaldan azad olunmuş ərazilərdə də keyfiyyətli mobil rabitə şəbəkəsinin genişləndirilməsini diqqət mərkəzində saxlayan Azercell təkcə Laçın rayonunda 11 baza stansiyası quraşdırıb və artıq Zabux, Sus və digər kəndlərdə mobil rabitə xidmətləri göstərməyə başlayıb. Onu da vurğulamaq lazımdır ki, işğaldan azad edilmiş torpaqlarda ilk mobil infrastrukturu məhz Azercell qurub. Şirkətin şəbəkəsi Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Kəlbəcər rayonlarını, İstisu, Hadrut, Suqovuşan qəsəbələrini, həmçinin Xocavənd və digər rayonların kəndlərini əhatə edir. Ümumilikdə, Azercell qeyd olunan regionlarda artıq 80-dən çox radio baza stansiyası quraşdırıb və bu istiqamətdə fəaliyyətini davam etdirir. Azercell şirkəti şəbəkəsinin genişləndirilməsi və modernləşdirilməsi üzrə layihəsini həyata keçirildiyi müddət ərzində ictimaiyyətə mütəmadi olaraq görülən işlər haqda yeniliklər təqdim edəcək.

**Elan**

Əhmədov Nəsib Vaqif oğluna Azərbaycan Televiziya və Radio verilişləri Qapalı Səhmdar Cəmiyyəti tərəfindən verilmiş iş vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Qasımov Sücayət Cəfər oğlunun adına verilmiş YAP, sürücülük, iş (SOKAR), Qarabağ veteranı (qazi), polisdən pensiyaya çıxma barədə vəsiqələr və sosial kart (sarı) itdiyi üçün etibarsız sayılır.

Məmmədov İlyas Qiniyaz oğluna məxsus 99 BA 520 dövlət nömrə nişanlı nəqliyyat vasitəsinin texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2549



## Trampın qalmaqallarının sayı yoxdur

### ABŞ-ın keçmiş prezidenti vəkillik borcunu atla ödəməyə çalışıb

**ABŞ-ın keçmiş prezidenti Donald Trampın qalmaqallarının sayı bilinmir. İddialara görə, keçmiş prezident borclu olduğu vəkilə ödənişi keçməyi təklif edib.**

"Nyu-York Tayms"ın gələn həftə nəşr edəcəyi kitabdakı məlumata görə, Tramp həmişə qanuni ödənişlərdən qaçmaq üçün alternativ yollar axtarır.

Buna görə də 2 milyon dollarlıq vəkil borcunu 5 milyon dollar dəyərində olan ayğırla ödəmək istəyib. Ödəniş nağd şəkildə həyata keçirilirsə, yaranacaq hüquqi haqların da müştəri tərəfindən ödənilməsi tələb olunur.

Vəkil isə bu maraqlı təklifə "Biz 1800-cü illərdə deyilik, mənə atla pul verə bilməzsiniz" deyə cavab verib.

Hadisənin 1990-cı illərdə baş verdiyi bildirilir. Ödənişlərini almaq üçün Donald Trampın ofisinə gedən vəkil bu cavabı alıb: "Sizə borcumu qaytarmayacağam, çünki sizə daha qiymətli bir şey verəcəyəm". Daha sonra Tramp qarşısındakı fayldan atın sənədini çıxarıb və atın 5 milyon dollar dəyərində olduğunu bildirib. Gərginlikdən sonra Donald Trampın borcunun bir hissəsini ödədiyi bildirilib.

**Turan**

## Gündə ən azı iki dəfə...

### Çox çay içən insanların ölüm riski azdır



**ABŞ alimləri hər gün çay içən insanların ölüm riskinin içməyənlərə nisbətdə 9-13 faiz daha az olduğunu aşkar ediblər.**

"Şərq" "NTV"-yə istinadən xəbər verir ki, ABŞ Milli Sağlamlıq İnstitutunun tədqiqatçıları Böyük Britaniyanın "Biobank" məlumat bankından istifadə ediblər. 2006-2010-cu illər arasında 40-69 yaş arasında olan 498.043 nəfərdən "çay içmə vərdişləri" barədə soruşublar.

Sorğunun respondentləri 2022-ci ilə qədər izlənilib. Alimlər nəhayət nəticələri açıqlayıblar. Gündə ən azı iki dəfə çay içən insanların ölüm riskinin 9-13 faiz daha az olduğunu bildiriblər.

Bu araşdırmaya qatılanların 100-də 89-nun qara çay növlərindən istifadə etdikləri vurğulanıb.

**Sücayət Mehti**



# Maraqlı araşdırma

## Necə yatdığınız, nə vaxt öləcəyinizi göstərə bilər





**Alimlərin fikrincə, yuxu tərzimiz ölümə nə qədər yaxın olduğumuzun göstəricisi ola bilər. Mövzu ilə bağlı araşdırma "Digital Medicine" jurnalında dərc olunub.**

Bəlkə də bəşər tarixində cavabsız qalan ən vacib sual nə vaxt öləcəyimizdir. Alimlər hələ nə vaxt öləcəyimizi təxmin etmək üçün bir yol tapmasalar da, ölümə nə qədər yaxın olduğumuzu anlamaq üçün müxtəlif araşdırmalar aparırlar. Onlardan biri yuxu və ölüm arasındakı əlaqəni izah etmək məqsədi daşıyır.

"Digital Medicine" jurnalında dərc edilən elmi araşdırma, yuxu zamanı insanların çənə və ayaq hərəkətləri, tənəffüs və ürək döyüntüləri daxil olmaqla, 12.000 araşdırmanın nəticələrini bir araya gətirib. Nəticə təəccüblü olmasa da, maraqlıdır.

"Webtekno" xəbərinə görə, elm adamları keçmiş araşdırmaları birləşdirərək insanların yuxu yaşı adlandırdıqları yuxu rejimini və keyfiyyətini ortaya çıxaracaq model hazırlayıblar. Tədqiqatçıların fikrincə, insanın sağlamlığı ilə yuxu keyfiyyəti arasındakı korrelyasiya onun yuxu yaşını ortaya qoyur.

Araşdırmalara görə, xəstəliklərdə ilk pozulacaq məqamlardan biri yuxu rejimidir. Məsələn, Parkinson xəstəliyi olan insanlar simptomların görünməsindən təxminən 5-10 il əvvəl şiddətli yuxular görürlər.

Yuxuya müxtəlif rakurslardan yanaşan araşdırmalarda insanların gecələr oyandıqları, lakin oyandıqlarını xatırlamadıqları vəziyyəti "ölümün ən güclü əlaməti" olaraq təsvir edilib. Bu tip yuxu pozğunluğu yuxusuzluq və ya yuxu apnesindən fərqlidir.

Tədqiqatçılardan biri olan Dr. Mignot deyib: "Yuxunun pozulmasının sağlamlıq üçün niyə bu qədər zərərli olduğunu müəyyən etmək, gələcəkdə üzərində işləməyi planlaşdırdığımız bir mövzudur".

**Turan**

## Kukla adası...

### Bura dünyanın ən qorxulu məkanıdır



**Meksikada yerləşən, əsl adı "Isla de Las Munecas" olan bu adanın hekayəsi Don Julian Santana Barreranın adada tək yaşadığı zaman başlayıb. "Şərq" xarici mediaya istinadən xəbər verir ki, təcrid həyatı yaşayan Barrera "Isla de Las Munecas" adasının yaxınlığındakı kanalda boğulmuş balaca bir qız tapıb. Çox keçmədən o, qızın kuklasının da kanala düşdüyünü görüb və kuklanı götürüb ağacdan asıb. Zamanla bu işə vərdiş edən Santana adadakı bütün ağacları kuklalarla doldurmağa başlayıb. Hadisədən 50 ildən sonra adanın hər yerində minlərlə kuklanın ağaclardan asılı olduğu bir mənzərə yaranıb. Maraqlısı odur ki, Santana da 2001-ci ildə eynilə bu körpə qız kimi su yollarından birində boğularaq ölüb. O vaxtdan Santananın ailəsi adada turistik fəaliyyətlər təşkil edərək pul qazanıblar.**

**Günəş Mərd**

## Azərbaycanda ən çox porno saytlar axtarılıb

### Pulsuz tərcümə, mərc saytlarına da maraq çoxdur



**2021-2022-ci illərdə Azərbaycanda "Google"da ən çox porno saytları axtarılıb.**

**"Şərq" xəbər verir ki, axtarış siyahısında ikinci yerdə isə "Google"un pulsuz tərcümə sistemi - "google translate" dayanır. İllik axtarış siyahısı göstərir ki, ölkədə mərc saytlarına da maraq kifayət qədərdir.**

**Similarweb.com-un araşdırmasına görə, cari ilin iyun ayınadək dünyada da oxşar tendensiyalar olub. "Google"da 481.5 milyon dəfə axtarılan "youtube" siyahıda liderdir. "Pornhub" sözü isə 204.3 milyon dəfə axtarılaraq, dördüncü pillədədir.**

**Aygün Tahir**

## Şahzadə ilə hersoginyanı onlar canlandıracaq



**"Tac" serialının 6-cı mövsümündə Britaniya şahzadəsi Uilyam və həyat yoldaşı, Kembric hersoginyası Keyt Middltonu canlandıracaq aktyorların kimliyi bəlli olub.**

**Axşam.az xəbər verir ki, Uilyamın 15 yaşındakı halını Rufus Kemp, gənclik və yeniyetməlik dövrünü Ed Makvey canlandıracaq. Meg Ballami isə Middlton rolunda ekranda görünəcək.**

***Qeyd edək ki, serialın yeni mövsümü noyabrın 5-də "Netflix"də yayımlanacaq.***



## 98 ildir 53 yaşı var

### İstifadə edilən iynələrin dünyada tayı-bərabəri yoxdur



**Ölümündən sonra cəsədi mumiyalanaraq Qızıl Meydandakı məqbərədə mühafizə olunan Sovet İttifaqının qurucusu Vladimir Lenin düz 98 il əvvəl vəfat edib. Bu, alimlər komandasının onu qorumaq üçün bir əsrdən çox istifadə etdiyi mürəkkəb üsullara görədir. O qədər ki, bu prosedurlar botoksdan tutmuş in vitro gübrələmə müalicəsinə qədər elmi sahədə mühüm inkişafların qabaqcıllarından olub.**

20-ci əsr Rusiya İmperiyası üçün pis başlamış, küçələr qaynama nöqtəsinə gəlmişdi. Uzun sürən müharibələrin yaratdığı maddi və mənəvi dağıntılardan əziyyət çəkən rus xalqı imperiyanın Birinci Dünya müharibəsinə daxil olması ilə bağlı ciddi problemlər yaşayırdı. Bütün bunlar davam edərkən Almaniyadan Rusiyaya gedən qatarın möhürlənmiş vaqonunda olan bir şəxs istiqamətini dəyişərək dünya tarixində yeni dövr açmağa hazırlaşırdı. Vladimir İliç Lenin Rusiyaya gələndə ümumi əhval-ruhiyyə belə idi. Tezliklə Lenin öz tərəfdarları ilə birlikdə hakimiyyəti ələ keçirməyə çalışdı və xaotik mühitdə son qələbəyə nail oldu. 1917-ci ildə baş verən Oktyabr inqilabı ilə Sovet İttifaqı quruldu və yeni dövrə qədəm qoyuldu. Lakin 30 avqust 1918-ci ildə Lenin səfər zamanı öldürüldü. Ağır yaralansa da, Lenin sağ qaldı, lakin onun səhhəti bir daha əvvəlki kimi olmadı və günü-gündən pisləşdi. 1924-cü ildə Lenin insultdan vəfat edəndə milyonlarla insan onun cəsədini görmək üçün Moskvadakı Qırmızı Meydana axışırdı. Sovet administrasiyası Leninin cəsədini balzamlamaq və qorumaq qərarına gəldi. Lenin canlı heykələ çevriləcək və Sovet İttifaqının ürəyində ictimaiyyətə açılacaqdı.

Bu gün Sovet İttifaqının adı tarixin tozlu səhifələrində yalnız bir dövlət olsa da, onun qurucusu Leninin cənazəsi hələ də Qızıl Meydanda nümayiş etdirilir. Təxminən 152 il əvvəl anadan olan Leninin 98 ildir ki, 53 yaşı var və bədən bütövlüyünü qoruyub saxlayır. Bədənin bütövlüyünü qorumaq və pozulmaması üçün tez-tez xüsusi qayğı göstərilir. Bu müalicələr zamanı iynələr, xüsusi mayelər və bəzən plastik cərrahiyyəyə bənzər prosedurlar tətbiq edilir.

Leninin doğum günü və SSRİ-nin yaranmasının ildönümündə sovet liderinin balzamlanmış cəsədinin Qızıl Meydandan götürülərək dəfn edilməsi ilə bağlı müzakirələr gündəmə gətirilir. Rusiyada millətçilər və pravoslav kilsəsi Leninin dəfnini müdafiə edir, kommunistlər isə bunu təxribat hesab edirlər.

*(Davamı səh: 7-də)*

**Turan**

## Ağcaqanaddan qurtulmağın sadə üsulları var

### Doğranmış limon, bir neçə mixək köməyinizə çata bilər



**Evdə bir neçə sadə üsulla ağcaqanadlarla mübarizə apara bilərsiniz.**

"Şərq" əldə etdiyi araşdırma materialları əsasında həmin metodları təqdim edir.

Milçəklər xüsusilə mentol və müxtəlif bitki qoxularını sevmirlər. Bunlara ən çox lavanda, evkalipt, mixək və portağal qabığı qoxuları daxildir. Bu qoxuları gün ərzində evinizə səpərək ağcaqanadları dəf edə bilərsiniz.

Yarım doğranmış limon, bir neçə mixəyin köməyi ilə ağcaqanad və ev milçəklərini süfrənizdən uzaq tutmaq olar.

Bədəninizə milçəklərin xoşuna gəlməyən qoxulardan ibarət olan yağları sürtməklə sizə yaxınlaşmasının qarşısını almağınız mümkündür. Xüsusilə, çay, limon və evkalipt yağlarının kəskin qoxusu sayəsində ağcaqanadlar birbaşa zərərsizləşir. Ağcaqanadları sizdən uzaq tutmaq üçün nəbzinizə yaxın hissələrinizə bir neçə damcı yağ sürmək kifayətdir.

**Aygün Tahir**

## 30 ildən sonra...

### Qrupa açdığı davanı uduzdu



**Məşhur rok qrupu "Nirvana"nın "Nevermind" albomunun üz qabığında yer alan "hovuzdakı körpə" Spenser Elden açdığı istismar davasını uduzub.**

"Şərq" "ntv.com.tr"ə istinadən xəbər verir ki, Kurt Cobainin solisti olduğu "Nirvana" qrupunun "Nevermind" (1991) albomunun üz qabığında yer alan körpənin istismarı ilə bağlı 30 ildən sonra qrupa açdığı davanı uduzub. Hakim Eldenin zorakılığa məruz qaldığını iddia etmək üçün artıq gec olduğunu bildirib. Elden körpəsinin fotosunun icazəsiz istifadəsinə görə 150 min dollarlıq iddia qaldırıb. Fotoqraf Kirk Uedl, qrup üzvləri Dave Grohl, Krist Novoselic və Cobainin arvadı Kortni Lav Spenserin iddiasını müdafiə edən tərəf olublar.

Eldenin mühakimə etdiyi "Nevermind" albomunun üz qabığında üzgüçülük hovuzunda suyun altında cinsiyyət orqanı açıq qalmış körpə göstərilir. Bu foto, ümumiyyətlə, albomun buraxılışı zamanı kapitalizmin tənqidi kimi qəbul edilib çünki o, körpə suyun altında üzərkən çubuğa rəqəmsal olaraq dollar əskinas yerləşdirməyi nəzərdə tutub. Körpələrin seksuallaşdırılmayan çılpaq fotoşəkilləri ABŞ qanunlarına görə ümumiyyətlə uşaq pornoqrafiyası sayılmasa da, Elden məhkəmədə fotonun uşaq pornoqrafiyası həddini keçdiyini iddia edib. İddiasını gücləndirmək üçün o, fotoya qeyri-adi şərh verib və bildirib ki, şəklə pul əlavə etmək körpəni "seks işçisi kimi" göstərir.

**Günəş Mərd**